QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 041 (7209)

6 mart 2025-ci il.
Qiyməti 60 qəpik

"Bəsirətin Zəfəri"

5

Türkiyə - Azərbaycan qardaşlıq tarixində önəmli gün!

2

Azərbaycan və Türkiyə prezidentləri İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirak ediblər

İrəvan nə istəyir?

7

Ramazan: Ruhu, nəfsi və bədəni tərbiyə edən ay

8

Adımıza saxta sosial şəbəkə hesabı açanlar qanunla necə cəzalandırılır?

16

Hədiyyələrin məzmunu maddi olaraq müxtəlif ola bilər

10

Azərbaycan uğurları ilə yeni tarix yazır

9

Pul yığımı başlayıb

12

Türkiyə - Azərbaycan qardaşlıq tarixində önəmli gün!

Azərbaycan və Türkiyə prezidentləri İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirak ediblər

Dünən Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə iştirak ediblər. Açılış mərasimində çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov bildirdi ki, İğdır-Naxçıvan qaz boru kəməri layihəsi Naxçıvanın qaz təchizatını şaxələndirməklə yanaşı, həm Naxçıvan, həm də İğdır əhalisinin rifahına xidmət edəcək. Layihənin daha bir özəlliyi ondan ibarətdir ki, bu gün kəmərin maksimum ötürmə gücü 730 milyon kubmetrdirsə, gələcəkdə layihənin genişləndirilməsi imkanları da var.

Sonra Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar çıxış edərək İğdır-Naxçıvan qaz kəməri layihəsini Türkiyə və Azərbaycan qardaşlığının daha bir simvolu adlandırdı. Nazir bütün Naxçıvanı qazla təmin edəcək İğdır-Naxçıvan qaz kəməri layihəsinin ərsəyə gəlməsinə görə dövlət başçılarına təşəkkür etdi. Daha sonra Azərbaycan Prezidenti mərasimdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, bu gün Türkiyə və Azərbaycan - iki qardaş ölkə nəhəng layihələr reallaşdırır. Dövlətimizin başçısı bildirib ki, bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir, həm ölkələrimiz üçün, həm daha geniş coğrafiya üçün.

-Hörmətli Cümhurbaşqanı, əziz Qardaşım.

Hörmətli mərasim iştirakçıları.

Bu gün Türkiyə-Azərbaycan dostluq, qardaşlıq tarixində önəmli bir gündür - İğdır-Naxçıvan qaz xəttinin açılışı qeyd edilir. Burada deyildiyi kimi, Naxçıvanda hörmətli Cümhurbaşqanı ilə birlikdə bir il yarım bundan öncə biz bu qaz xəttinin təməlini qoyduq və artıq bu gözəl mərasimdə iştirak edirik.

Bildiyiniz kimi, Naxçıvan qədim Azərbaycan torpağıdır. Ancaq artıq bir əsrdən çoxdur ki, Azərbaycanın əsas hissəsindən ayrılıb. Bunun səbəbi ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut edəndən beş ay sonra sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirdi və beləliklə, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozulub. Bir əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvanda yaşayan bizim soydaşlarımızın həyatına çox mənfi təsir göstərmişdir. Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda, Naxçıvanı blokadaya aldı. Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular.

Naxçıvanın o zaman işğal altına düşməməsinin səbəblərindən biri də o idi ki, o zaman Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid" körpüsü inşa edilmişdir və Türkiyədən gələn yardımlar Naxçıvanın qorunmasına çox önəmli töhfə vermişdir.

Bu gün Türkiyə və Azərbaycan - iki qardaş ölkə nəhəng layihələr reallaşdırır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft-qaz boru xətləri layihələri nəinki ölkələrimizi birləşdirdi, eyni zamanda, Avrasiyanın enerji xəritəsini dəyişdirdi. Bu gün Azərbaycandan Türkiyə ərazisindən gedən qaz bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Keçən il Azərbaycanın qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Onun təxminən yarısı Türkiyəyə olan ixracatdır və Türkiyədən başqa da 11 ölkə, onlardan 10 Avropa ölkəsi Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini gücləndirir.

Bu gün açılışında iştirak etdiyimiz layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək. Çünki Azərbaycandan gələn qaz Türkiyə ərazisindən svop şəklində Naxçıvana ötürülərək, artıq Naxçıvanı da bu problemdən xilas etmiş olacaqdır.

Bizim birgə həyata keçirdiyimiz enerji layihələrimiz, eyni zamanda, nəqliyyat layihələrinin reallaşmasına da imkan verdi. Bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir, həm ölkələrimiz üçün, həm daha geniş coğrafiya üçün. Xüsusilə Türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir. Türk dünyasının birləşməsi yolunda əziz Qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edildi, həm Türk dünyasının daha da sıx birləşməsi üçün yeni imkanlar yarandı. Azərbaycan da hər zaman Türk dünyasının birləşməsinə çox böyük önəm verirdi və öz tərəfindən bu birliyi təmin etmək, bunu əbədi etmək və ortaq maraqlar və ortaq tarix üzərində əlaqələri qurmaq üçün səylərini əsirgəmirdi.

Bugünkü mərasim bir daha Türkiyə-Azərbaycan birliyini, dostluğunu, qardaşlığını göstərir, onun əyani təzahürüdür. Əminəm ki, Naxçıvanda yaşayan 500 minə yaxın soydaşımız bu gün gözəl Ramazan ayında bu mərasimi də bayram kimi qeyd edəcək. Bütün bu işlərdə iştirak etmiş yoldaşlarımıza, dostlarımıza öz adımdan təşəkkürümü bildirirəm. İnşaat işləri qısa müddət ərzində, cəmi bir ildən bir qədər çox çəkdi və biz artıq bu gözəl mərasimdə iştirak edirik.

Ardı Səh. 3

Rəcəb Tayyib Ərdoğan: "Türkiyə və Azərbaycan sülhün, sabitliyin, rifahın tərəfindədir"

Prezident: "Bu gün Türkiyə ilə Azərbaycan - iki qardaş ölkə nəhəng layihələr həyata keçirir"



Türkiyə - Azərbaycan qardaşlıq tarixində önəmli gün!

Azərbaycan və Türkiyə prezidentləri İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirak ediblər

Azərbaycan Prezidenti: “Bu gün açılışında iştirak etdiyimiz layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək”

Əvvəli Səh. 2

Sonra Türkiyə Prezidenti mərasimdə çıxış edib. Prezident Rəcəb Tayyib Ərdoğan öz çıxışında qeyd edib ki, ”bəzilərinin xəyal hesab etdiyi Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri kimi, ”Şahdəniz” yatağının və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin istismara verilməsi ilə enerji əməkdaşlığımızı daha irəliyə aparmağa nail olduq”

-Əziz Qardaşım Prezident İlham Əliyev.

Hörmətli nazirlər, hörmətli qonaqlar.

Sizləri ən səmimi duyğularımla, sevgi ilə salamlayıram.

Qardaşım Azərbaycan Prezidenti cənab İlham Əliyevi Türkiyədə qəbul etməkdən böyük məmnunluq duyduğumu xüsusilə ifadə etmək istəyirəm. Ona və dəyərli nümayəndə heyətinə Ankaramıza ”Xoş gəldiniz!” deyirəm.

Hazırda qarşımda bu işlərdə əməyi olan fəhlə və mühəndis qardaşlarımız var. İnşallah, çıxışlarımızı bitirdikdən sonra onlarla birlikdə Türkiyə və Azərbaycan üçün ayrıca xatirə şəkillərimizi çəkdirəcəyik.

Dəyərli qardaşımın və nümayəndə heyətinin timsalında Azərbaycan xalqının mübarək Ramazan ayını ürəkdən təbrik edirəm. ”Bir millət, iki dövlət” şüarı ilə formalaşan qardaşlıq münasibətlərimizdə hər sahədə böyük irəliləyişlər əldə edirik. Ölkələrimiz arasındakı münasibətlər müdafiədən ticarətə qədər çox geniş sahədə daim inkişaf edir. Şübhəsiz ki, bu əməkdaşlıqlarımız arasında bir çox layihə ilə taclandırdığımız enerji sektoru başda yer alır. Bəzilərinin xəyal hesab etdiyi Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri kimi, ”Şahdəniz” yatağının və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin istismara verilməsi ilə enerji əməkdaşlığımızı daha irəliyə aparmağa nail olduq. Anadoludan keçən təbii qaz boru kəməri - TANAP vasitəsilə böyük miqdarda Azərbaycan qazının Avropaya çatdırılmasının sevincini yaşayırıq. Bu sahədə strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik.

Bu gün İlham qardaşımla birlikdə bu əməkdaşlığa yeni bir layihəni də əlavə etməkdən böyük məmnunluq duyuruq. Bir azdan açılışını edəcəyimiz İğdır-Naxçıvan təbii qaz boru kəməri enerji sahəsində daha əvvəlki strateji təşəbbüslərimizi tamamlayacaq, həmçinin Naxçıvan ilə ortaq taleyimizin bir nişanəsi olacaq. BOTAŞ tərəfindən inşa edilən 80 kilometr uzunluğunda, gündəlik 2 milyon kubmetrə qədər nəqletmə qabiliyyətinə malik bu kəmər xüsusilə Naxçıvanın təbii qaz ehtiyacının hamısını ən azı 30 il müddətində təmin edəcək. Beləliklə, Naxçıvanın enerji təhlükəsizliyini uzun illər təmin edəcək bir layihəni qardaşımla birlikdə ölkələrimizə qazandırmış oluruq.

Fürsətdən istifadə edərək, bunu da demək istəyirəm ki, Türkiyə və Azərbaycan sülhün, sabitliyin, rifahın tərəfindədir. Bölgəmizdə ancaq sülh istəyirik, əməkdaşlıq istəyirik, hamımızın birlikdə inkişaf etməsini istəyirik. Bu məqsədlə indiyədək bir sıra addımlar atdıq, səmimiyyətimizi göstərdik. İnşallah, bundan sonra regional sülh, rifah və əmin-amanlıqla bağlı hər cür layihəni birlikdə həyata keçirməkdə qətiyyətliyik.

6 fevral zəlzələləri başda olmaqla, ən çətin günlərimizdə necə ki, Can Azərbaycanı yanımızda gördüksə, biz də qardaşlarımızın ehtiyac duyduğu hər an yanlarında olacağıq. İnşallah, Naxçıvanla elektrik əlaqələrimizin də gücləndirilməsi ilə bu prosesi davam etdirəcəyik.

Bu hisslərlə bugünkü mərasimimizin Türkiyə-Azərbaycan qardaşlığını daha da gücləndirəcəyinə inanıram. Bu mühüm layihənin həyata keçirilməsinə töhfə verən hər kəsi, bütün qurumlarımızı diqqətlərinə görə, istər işçisi, istərsə də mühəndisi olmaqla, əməyi keçən bütün şəxsləri təbrik edirəm. Rəbbim birliyimizi, həmrəyliyimizi, sevgimizi daimi etsin. Layihənin bütün bölgə üçün xeyirli olmasını arzu edirəm. İlham qardaşıma səfərə görə xüsusilə şəxsən öz adımdan, ailəm adından və millətim adından təşəkkürümü bildirirəm.

Çıxışlardan sonra videobağlantı formatında İğdır-Naxçıvan qaz kəmərinin açılışı olub. Azərbaycanın energetika naziri Pərviz Şahbazov və qardaş ölkənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar İğdırda qaz kəmərini işə salıblar. Sonda xatirə fotosu çəkdirilib. Martın 5-də Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Azərbaycan-Türkiyə:
dünyaya örnək dostluq və qardaşlıq

PREZİDENT İLHAM ƏLİYEV: "BİZ DÜNYA MİQYASINDA, DÜNYA ÇAPINDA NADİR ƏMƏKDAŞLIQ, İŞ BİRLİYİ, MÜTTƏFİQLİK NÜMUNƏSİ GÖSTƏRİRİK"

Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Türkiyə-Azərbaycan birliyi sarsılmazdır. Əlbəttə ki, Azərbaycan-Türkiyə əlaqələri sarsılmaz dostluq və qardaşlığa söykənir, uğurla davam etdirilir. Əsrlər boyu Azərbaycan və Türkiyə həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişdir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir. Mövcud münasibətlərin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Əlbəttə ki, Türkiyə-Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib.

Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətdə qayıdışından sonra dövlətlərarası əlaqələrin artmasına, əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirilmişdir. "Bir millət, iki dövlət", - deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Əlbəttə ki, son illərdə Azərbaycan-Türkiyə münasibətləri ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə qədər yüksəlməsi mövcud əlaqələrin möhkəmliyinə, sarsılmazlığına əsaslanır.

"AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN BU GÜN DÜNYADA BƏNZƏRİ YOXDUR"

Regionda yaşanan hadisələr Türkiyə və Azərbaycanın rolunu və önəmini bir daha artırıb. Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Türkiyə-Azərbaycan birliyi sarsılmazdır. Azərbaycan Prezidenti çıxışlarının birində belə demişdir: "İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əcdadlarımızın mənəvi mirası olan qardaşlığımız, birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir." Türkiyə-Azərbaycan əlaqələrini ən yüksək müttəfiqlik səviyyəsinə qaldıran Şuşa Bəyannaməsi əhəmiyyətli rola malikdir. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu:"Şuşa Bəyannaməsi ilə müttəfiqlik zirvəsinə ucalmış əlaqələrimizin həyatın bütün sahələrində, istər siyasət, iqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət, təhsil, hərbi və digər sahələrdə özünü göstərməsi bizi çox sevindirir. Əminəm ki, "Bir millət iki dövlət" şüarını rəhbər tutan ölkələrimiz arasında müttəfiqlik münasibətləri birgə səylərimizlə bundan sonra da yüksələn xətlə və uğurla inkişaf etməyə davam edəcəkdir", - deyə Prezident bildirib. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir.

Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi iki dost və qardaş ölkə arasında 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə, eləcə də Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanır. Əminliklə bildirək ki, Azərbaycanla Türkiyə arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivləri, o cümlədən, tərəflərin siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsi münasibətlərin inkişafında əhəmiyyət kəsb edir. Bəyannamədə qeyd olunduğu kimi, öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən qardaş dövlətlər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər.

Təbii ki, Bəyannamədə diqqətimizi çəkən məqamlardan biri də hərbi əməkdaşlıq və milli təhlükəsizlik ilə bağlıdır. Sənəddə qeyd olunduuğu kimitərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər.

İKİ ÖLKƏ ARASINDA TİCARƏT ƏLAQƏLƏRİ, ENERJİ VƏ NƏQLİYYAT SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ

Xatırladaq ki, Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq münasibətləri XX əsrin əvvəllərindən etibarən inkişaf etməyə başlayıb. İki ölkənin ortaq tarixi, mədəniyyət və dil bağları bu əlaqələri daha da möhkəmləndirib. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulduqda Osmanlı İmperiyasının varisi olan Türkiyə bu müstəqil dövləti dəstəkləyərək diplomatik əlaqələrini genişləndirmişdi. Lakin Sovet İttifaqı dövrdə iki ölkə arasında əlaqələr əsasən qeyri-rəsmi şəkildə mövcud olub. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə münasibətlər daha da yaxınlaşmağa başlayıb. Türkiyə bu müstəqilliyi tanıyan ilk ölkə olub. Həmin dövrdən etibarən ölkələrimiz arasında siyasi və iqtisadi sahədə dərin əməkdaşlıq qurulub. 1990-cı illərin sonlarından başlayaraq, xüsusən də müstəqilliyin ilk illərində Türkiyə Azərbaycana siyasi və diplomatik dəstək göstərib, həmçinin iqtisadi inkişaf sahəsində bir çox layihələrdə iştirak edib. Türkiyə ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə olan dəstəyini, xüsusilə keçmiş Qarabağ münaqişəsi zamanı açıq şəkildə nümayiş etdirib. İki ölkə arasında ticarət əlaqələri, enerji və nəqliyyat sahələrində əməkdaşlıq diqqətəcəkəndir. Azərbaycan enerji ixracatı sahəsində Türkiyə vasitəsilə Avropaya açılan yeni yollar əldə edib, bu da hər iki ölkə üçün strateji baxımdan əhəmiyyətli olub.

Ölkələrimiz arasındakı iqtisadi əlaqələr, xüsusilə enerji sahəsindəki əməkdaşlıqla daha da güclənib. 2023-cü ildə Azərbaycan və Türkiyə arasında qarşılıqlı ticarət dövriyyəsi 8 milyard ABŞ dolları olub. Ötən il də artım dinamikası davam edib, Azərbaycanın Türkiyə iqtisadiyyatına etdiyi yatırımların həcmi isə 20 milyard dolları ötüb. Bu rəqəmin gələcəkdə daha da artacağı gözlənilir.

Azərbaycan Cənubi Qafqazın ən böyük enerji təchizatçısı olaraq Türkiyə vasitəsilə Avropaya enerji tədarükü edir. Bu sahədəki əməkdaşlıq xüsusilə 2006-cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri ilə dərinləşib. Bu layihələr yalnız iqtisadi deyil, həm də siyasi və strateji əhəmiyyətə malikdir, çünki Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

"BİZİ BİRLƏŞDİRƏN BİR ÇOX AMİLLƏR VAR"

Ölkələrimizin hərbi sahədəki əməkdaşlığı da hər zaman böyük önəm daşıyıb. Azərbaycanın müdafiə qabiliyyətinin artırılması istiqamətində Türkiyənin verdiyi dəstək, xüsusilə hərbi təlimlər və silah tədarükü sahələrində davam edir. Həmçinin hər iki ölkə beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir və regional təhlükəsizlik məsələlərində ortaq maraqlara malikdir. 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanı siyasi və hərbi baxımdan dəstəkləməsi, bu əlaqələrin daha da möhkəmlənməsinə gətirib çıxarıb.

Vətən müharibəsində qələbəmizdən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərləri qardaşlıq, dostluq mesajının daha bir təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bizi birləşdirən bir çox amillər var,ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk". Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsinin Vətən müharibəsində bir daha şahidi olduq. "Biz Azərbaycanın yanındayıq. Hadisələrə müdaxilə edənlər öndə bizi görəcəklər!", - söyləyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdi. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqları dalğalanır.

Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə - müttəfiqlik səviyyəsinə yüksəldilib.

KAHRAMANMARAŞDA "AZƏRBAYCAN" MƏHƏLLƏSİ

Bildiyimiz kimi, 2023-cü ilin fevralında Türkiyədə baş verən zəlzələ ölkənin cənub-şərqində böyük fəlakətlərə yol açdı. Əsrin faciəsi adlandırılan bu zəlzələnin fəsadlarının aradan qaldırılması zamanı Azərbaycanın Türkiyəyə göstərdiyi yardım qardaşlıq və dostluq münasibətlərinin ən gözəl nümunəsi idi..

Türkiyə Respublikasının Kahramanmaraş vilayəti və ətraf vilayətlərdə baş vermiş dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində Azərbaycan Respublikası qardaş Türkiyə ilə həmrəylik nümayiş etdirdi. Azərbaycan zəlzələdən zərər çəkən əhaliyə dərhal humanitar yardım göndərdi, Fövqəladə Hallar Nazirliyi vasitəsilə axtarış-xilasetmə əməliyyatlarına qatıldı. Yalnız təcili yardımlarla kifayətlənməyən dövlətimiz bölgənin uzunmüddətli bərpasına da mühüm töhfələr verdi.

Bu dəstəyin ən mühüm nümunələrindən biri Kahramanmaraş vilayətində inşa edilən "Azərbaycan" məhəlləsi oldu. Bu məhəllənin tikintisi Prezident İlham Əliyevin göstərişi ilə həyata keçirilib və bütün xərclər Azərbaycan dövləti tərəfindən qarşılanıb. Məhəllədə Kahramanmaraşda zəlzələ səbəbindən evsiz qalan ailələr üçün 1000-dən çox mənzil inşa olunub. Layihə təkcə yaşayış və ticarət obyektləri ilə məhdudlaşmır. Burada, həmçinin məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi, məscid və digər sosial obyektlər də tikilir. Burada inşa edilən məktəbə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı verilib. Yaşayış massivinə "Azərbaycan" məhəlləsi adının verilməsi isə iki qardaş ölkə arasında bağları daha da gücləndirir. Məhəllənin girişində Azərbaycan və Türkiyə bayraqları yanaşı dalğalanır və mərkəzdə Azərbaycan-Türkiyə dostluğunu simvolizə edən abidə ucaldılıb.

Azərbaycan təkcə Kahramanmaraşda deyil, Hatay və Adıyaman kimi zəlzələdən zərər çəkən digər bölgələrdə də tikinti işlərində Türkiyəyə dəstəyini davam etdirir.

"Azərbaycan" məhəlləsi təkcə bir yaşayış məkanı deyil, eyni zamanda, Azərbaycan və Türkiyənin qardaşlığının, sarsılmaz dostluğunun və fəlakət zamanı bir-birinə necə dayaq olduqlarının əyani sübutudur. Bu layihə bir daha göstərdi ki, Azərbaycan və Türkiyə təkcə dost və müttəfiq deyil, həm də eyni ruhu, eyni taleyi bölüşən "Bir millət, iki dövlət" anlayışına sahib qardaş ölkələrdir.

Əlbəttə ki, Azərbaycan ilə Türkiyə arasında olan bağlar, qardaşlıq və birlik bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik yaradır. Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətləri uğurla inkişaf edir, bütün sahələri əhatə edir və bu əməkdaşlığın çox gözəl nəticələri vardır. Həm ikitərəfli formatda, həm regional müstəvidə Türkiyə-Azərbaycan qardaşlığı və birgə fəaliyyəti çox önəmli bir amilə çevrilib. Əminliklə söyləmək olar ki, Azərbaycan-Türkiyə birliyi bundan sonra daha böyük zirvələr fəth edəcək!

NƏZAKƏT ƏLƏDDİNQIZI

"Bəsirətin Zəfəri"

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbir keçirilib

Martın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Bəsirətin Zəfəri" mövzusunda tədbir keçirilib. Tədbir çərçivəsində Milli Məclisin deputatı Samir Vəliyevin "Bəsirətin Zəfəri" kitabının təqdimatı da olub.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmiş və təsdiq olunmuş Tədbirlər Planına əsasən il ərzində çoxsaylı yerli və beynəlxalq əhəmiyyətli

tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur: "Müstəqil, hüquqi və demokratik dövlət olan Azərbaycanın aparıcı siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası tərəfindən də silsilə tədbirlər keçiriləcəkdir. "Bəsirətin Zəfəri" mövzusunda təşkil olunan bugünkü tədbirimiz də "Konstitusiya və Suverenlik İli" çərçivəsində ölkəmizin müstəqil inkişaf yoluna, möhtəşəm Zəfərimizin tarixi və ictimai-siyasi əsaslarına, nəhayət, yeni mərhələdə suveren Azərbaycanın qarşısında duran əsas hədəflərə nəzər salınması baxımından mühüm əhəmiyyət kəsb edir".

Tahir Budaqov vurğulayıb ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemində ciddi dəyişikliklər baş verməkdədir. Onun sözlərinə görə, qlobal kataklizmlər fonunda yeni geosiyasi reallıqların meydana çıxdığı - çoxqütblü dünya nizamına transformasiya prosesinin vüsət aldığı bir dönəmdə dövlətçilik maraqlarının qorunması olduqca vacibdir: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edərək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Respublikası da belə bir tarixi dövrdə son dərəcə aktual çağırışlarla qarşı-qarşıyadır. Siyasi sabitliyin və milli birliyin qorunması, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, regionda daimi sülhə, etibarlı təhlükəsizliyə və çoxşaxəli əməkdaşlığa nail olunması bu baxımdan müstəsna əhəmiyyət daşıyır".

YAP Sədrinin müavini müstəqil Azərbaycanın konstitusiya quruluşunun əsaslarının xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirildiyini vurğulayıb: "1993-cü il oktyabrın 3-də xalqın iradəsinin nəticəsi olaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyevin milli maraqlara, dövrün tələblərinə və ictimai-siyasi reallıqlara uyğun həyata keçirdiyi siyasətin başlıca istiqaməti müasir - hüquqi və dünyəvi dövlət quruculuğu olmuşdur. İctimai-siyasi sabitliyin, vahid milli ideya - azərbaycançılıq ideologiyası əsasında vətəndaş həmrəyliyinin, milli birliyin təmini, ardıcıl siyasi-hüquqi islahatların reallaşdırılması, müstəqillik dövründə ilk parlament seçkilərinin keçirilməsi və müstəqillik dönəminin ilk Konstitusiyasının hazırlanaraq ümumxalq səsverməsi - referendum əsasında qəbul edilməsi Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsini təmin etmişdir. Prezident İlham Əliyevin Sərəncamında qeyd edildiyi kimi, Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır".

O qeyd edib ki, ölkə daxilində məzmun və keyfiyyətcə yeni inkişaf mərhələsindən bəhs edərkən ilk növbədə Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin milli maraqlara cavab verən, demokratik dəyərləri, qarşılıqlı hörmət və etimad prinsipini özündə ehtiva edən siyasətini ardıcıl islahatlarla dövrün tələblərinə uyğun zənginləşdirərək ölkəmizin Cənubi Qafqaz regionunda və daha geniş coğrafiyada nüfuzunu daha da artırmasını xüsusi vurğulamaq gərəkdir: "Son bir il ərzində keçirilmiş prezident, parlament və bələdiyyə seçkiləri Azərbaycan xalqının Heydər Əliyev ideyalarına, Prezident İlham Əliyevin siyasətinə birmənalı dəstəyinin növbəti təzahürü olmuşdur. Bu gün xalqımız milli məsələlərdə qətiyyətli birlik və həmrəylik nümayiş etdirir, vahid yanaşma və prinsipial mövqe ortaya qoyur, milli təhlükəsizlik, ərazi bütövlüyü, konstitusiya quruluşu və suverenliyimizin qorunması məsələlərində dövlət başçısının siyasətinə mütləq dəstək göstərir".

Tahir Budaqov bildirib ki, Azərbaycanın bütün ərazisi üzərində suverenliyinin bərpası regionda ədalətli geosiyasi nizamın - yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşması, bütövlükdə sülh naminə etimad quruculuğunun həyata keçirilməsi baxımından da böyük önəmə malikdir: "Hər zaman sülh, sabitlik və inkişaf tərəfdarı kimi çıxış edən, öz əməli fəaliyyəti ilə Cənubi Qafqazın fəal dialoq və konstruktiv əməkdaşlıq məkanına çevrilməsində maraqlı olduğunu nümayiş etdirən Azərbaycan həyata keçirdiyi uzaqgörən siyasəti ilə, reallaşdırdığı transmilli layihələrlə qlobal təhlükəsizlik mühitinin formalaşmasına öz töhfələrini verməkdədir. Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində Avrasiyanın mühüm tranzit qovşağına çevrilən ölkəmizin təşəbbüsləri regionda səmərəli işbirliyinin qurulması baxımından bir çox dövlətlər üçün geniş ticari-iqtisadi imkanlar və parlaq perspektivlər yaradır. Dövlət başçısının müstəqil və qətiyyətli siyasəti Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli formatda münasibətlərinin inkişafını təmin etməklə yanaşı, beynəlxalq təşkilatlarla əlaqələrin möhkəmlənməsini də şərtləndirir. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə əldə etdiyi nailiyyətlər, BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər təsisatlarda səmərəli fəaliyyəti və nəhayət, 2024-cü ilin noyabr ayında COP29-a uğurla ev sahibliyi etməsi və bunun nəticəsi olaraq iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair qlobal əhəmiyyətli qərarların qəbulu ölkəmizin beynəlxalq müstəvidə ədalətli və etibarlı tərəfdaş kimi önəmini qabarıq şəkildə bir daha təsdiq etmişdir. Bunlarla yanaşı, Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı - D8-ə üzv olması, Şanxay Əməkdaşlıq Təşkilatı, BRICS kimi nüfuzlu platformalarda tərəfdaş ölkə kimi işbirliyini diqqət mərkəzində saxlaması yeni geosiyasi çağırışlar fonunda mühüm əhəmiyyətə malikdir.

Bu gün Azərbaycanın xarici siyasətinin əsas prioriteti Türk dünyasında ikitərəfli və çoxşaxəli əlaqələri inkişaf etdirərək Türk Dövlətləri Təşkilatını daha da gücləndirməkdir. Hazırda ölkəmizin fəal təşəbbüsləri Türk dünyasında dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafına xidmət etməklə yanaşı, yeni perspektivlər yaradır. Qarşıdakı dövrdə Zəngəzur dəhlizinin reallaşdırılması və Orta dəhlizin inkişaf etdirilməsi türk dövlətlərinin yeni çoxtərəfli əməkdaşlıq platformasında bir araya gəlməsini, bütövlükdə Türk dünyasında inteqrasiyanın gücləndirəcək. Bütün bunlar isə yeni dünya nizamı şəraitində Avrasiyada, xüsusilə də Türk dünyasında geosiyasi fəallığın artmasına təkan verərək uzunmüddətli hədəflərə nail olmağa real zəmin yaradacaqdır".

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, Azərbaycanın möhtəşəm Qələbəsindən sonra - 2021-ci il martın 5-də keçirilmiş Yeni Azərbaycan Partiyasının VII qurultayında partiyamızın Sədri, dövlətimizin başçısı İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin ardıcıl şəkildə yerinə yetirilməsi yeni mərhələdə Azərbaycanın önəmli uğurlar əldə etməsinə və milli prioritetlərdən irəli gələn hədəflərin reallaşdırılmasına etibarlı zəmin yaradır: "Sıralarında 750 minə yaxın vətəndaşımızı birləşdirən Yeni Azərbaycan Partiyasının fəaliyyət prinsiplərindən biri konstruktiv əməkdaşlıq və dialoqdur. YAP-ın mövqeyinə görə, siyasi dialoq partiyalararası münasibətlərdə qarşılıqlı əməkdaşlıq yaradır, siyasi həmrəylik şəraitində konstruktivliyi təmin edən mütərəqqi ideyalar formalaşır. Öz fəaliyyətində qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərini əsas götürən Yeni Azərbaycan Partiyası siyasi plüralizmi təşviq edir, siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə layiqli töhfələr verir. Partiyanın Proqramında qeyd edildiyi kimi, YAP dövlətin idarə olunmasında demokratik prinsipləri əsas götürür, siyasətdə açıq və peşəkar münasibətlərin tərəfdarı kimi çıxış edir. YAP-ın mövqeyinə görə, demokratik siyasi münasibətlər dövlətin mütərəqqi yolla inkişafını şərtləndirən vacib faktordur. Buna görə də partiya demokratik ənənələrə mühüm siyasi dəyər kimi yanaşır və onları möhkəmləndirməyi əsas məqsədlərindən biri hesab edir".

Tahir Budaqov əlavə edib ki, Yeni Azərbaycanın Partiyasının yeni reallıqlardan irəli gələn çağırış və hədəfləri əsası götürərək beynəlxalq əlaqələrini uğurla davam və inkişaf etdirməsi də suveren Azərbaycanın dövlətçilik maraqlarının qorunması üçün böyük önəm kəsb edir: "Partiyamızın beynəlxalq əlaqələrində dost ölkələrin aparıcı siyasi partiyaları ilə münasibətlər mühüm yer tutur. Dövlət başçısının uzaqgörən xarici siyasət kursu əsasında partiya diplomatiyasının həyata keçirilməsi - partiyalar arasında intensiv təmasların müvəffəqiyyətlə davam etdirilməsi, səmərəli fikir və təcrübə mübadiləsinin aparılması yeni reallıqların beynəlxalq arenada təbliği və ölkələrarası münasibətlərin möhkəmlənməsi baxımından əhəmiyyətlidir. Qeyd etmək lazımdır ki, partiyamızın sonuncu qurultayından keçən dördillik müddət ərzində bir sıra ölkələrin, o cümlədən Türkiyə, Özbəkistan, Qazaxıstan, Ukrayna, Şimali Kipr Türk Respublikası, Şimali Makedoniya, Çin və Vyetnamın aparıcı siyasi partiyaları ilə ikitərəfli əməkdaşlıq sazişləri imzalanmış, ICAPP, CDI kimi önəmli siyasi platformalarda YAP-ın fəal iştirakı təmin edilmişdir ki, bu da ölkəmizin siyasi nüfuzunun artmasına xidmət etməklə yanaşı, ümumilikdə dövlətlərarası münasibətlərin inkişafına öz töhfəsini verməkdədir".

YAP Sədrinin müavini vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti öz milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir: "Dövlət başçısı, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə məqsədyönlü fəaliyyətini inamla davam etdirərək inkişaf yolunda əmin addımlarla irəliləyən Yeni Azərbaycan Partiyası da yeni dövrün reallıqları və çağırışlarından irəli gələrək suveren Azərbaycanın milli maraqlarının təmini üçün öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək əzmindədir".

Ardı Səh. 6

“Bəsirətin Zəfəri”

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbir keçirilib

Əvvəli Səh. 5

Tahir Budaqov bildirib ki, Azərbaycanın möhtəşəm Zəfər yolunun hərtərəfli tədqiqi və geniş ictimaiyyətə çatdırılmasında müxtəlif kütləvi nəşrlərin, o cümlədən elmi-tədqiqat işləri, əsərlər, monoqrafiya və kitabların da mühüm rolu var. Onun sözlərinə görə, Milli Məclisin deputatı Samir Vəliyevin müəllifi olduğu ”Bəsirətin Zəfəri” adlı kitabda Azərbaycanın müstəqillik dövründə qazandığı nailiyyətlərdən bəhs olunmuş, yeni reallıqlar fonunda qarşıda duran hədəflərə nəzər salınmış və tarixi faktlar, mövcud gerçəkliklər əsasında təhlillər aparılmışdır. YAP Mərkəzi Aparatının rəhbəri bütövlükdə bu əsərin Azərbaycana möhtəşəm nailiyyətlər bəxş edən Heydər Əliyev ideya-siyasi xəttinin və Prezident İlham Əliyevin varislik prinsipinə əsaslanan siyasi kursunun öyrənilməsi və yeni nəslə aşılanması, müasir müstəqil və qalib Azərbaycanın zəngin və şərəfli inkişaf yolunun araşdırılması baxımından dəyərli mənbə olduğunu bildirib.

”Əminliklə söyləyə bilərik ki, ”Konstitusiya

və Suverenlik İli” Azərbaycanın yeni uğurları və milli gücünün daha da artması ilə əlamətdar olacaqdır. Hər birinizə dövlətimiz və xalqımızın firavan gələcəyi naminə möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə müqəddəs amallara doğru bu şərəfli yolda inam və əzmlə addımlamağı arzulayır, diqqətinizə görə təşəkkürümü bildirirəm”, - deyə YAP Sədrinin müavini əlavə edib.

Odlar Yurdu Universitetinin rektoru, professor Əhməd Vəliyev çıxışında Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini vurğulayaraq müasir müstəqil Azərbaycan dövlətinin Ulu Öndərin adı ilə bağlı olduğunu bildirib. O, siyasi varisliyin təmin edilməsinin Azərbaycanın gələcək taleyi üçün müstəsna əhəmiyyətə malik olduğunu söyləyərək müəllifi olduğu ”Bəsirətin ünvanı” kitabında bu barədə geniş təhlillərin aparıldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, əsərin mahiyyətini dahi bir şəxsiyyətin qurduğu dövlətçilik modelini, dövlətin, millətin gələcək taleyini Heydər Əliyevdən sonra kimə tapşırmaq olar sualına əsaslı faktlarla cavab verilməsi təşkil edir: ”Məhz bu baxımdan, uzun illər təhlillər aparılıb. Azərbaycanda siyasi proseslər, cənab İlham Əliyevin hansı parametrləri ödədiyi, onun genetik kodu, həyata baxışı, dövlətçilik düşüncə tərzi təhlil edilib. Birincisi, cənab İlham Əliyevin Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi o dövrdə Ulu Öndərin yanında olaraq, dünyanın ən nəhəng neft şirkətlərinin Azərbaycana gətirilməsi, beynəlxalq kontraktların imzalanması ilə bağlı fəaliyyətinə nəzər salınıb. Zəngin dünyagörüşünə malik cənab İlham Əliyevin müəllifliyi ilə neft strategiyası neft diplomatiyasına çevirildi. İkincisi, onun YAP-ın rəhbərliyindəki fəaliyyətindən bəhs olunub. Partiyanın siyasi inkişaf tarixi yeni dövrdə cənab İlham Əliyevin simasında yeni liderə ehtiyacın olması reallığını ortaya çıxardı. Üçüncüsü, bütün istiqamətlərdə Zəfər yolunun yolçusu, sabahımıza qarant olan lider - İlham Əliyevin Milli Olimpiya Komitəsində gənclərlə çoxşaxəli iş bacarığına diqqət yetirilib. Dördüncüsü isə, Avropa Şurası Parlament Assembleyasındakı Azərbaycan nümayəndə heyətinin rəhbəri olaraq cənab İlham Əliyevin beynəlxalq müstəvidə ölkəmizi layiqincə, yüksək səviyyədə təmsiletmə qabiliyyəti təhlil olunub”.

Ə.Vəliyev qeyd edib ki, cənab İlham Əliyevin ölkəmizə qarşı olan qüvvələri susdurmaq bacarığı və digər parametrlər - yüksək humanizm, mədəniyyət, soykökünə bağlılıq və Ulu Öndərin varisi olaraq onun qurduğu dövlət modelini qoruma qabiliyyəti tam şəkildə təhlil edilib: ”O zaman qeyd edirdik ki, Ulu Öndərdən sonra Azərbaycanın taleyi yalnız və yalnız İlham Əliyevə tapşırıldığı halda, ölkəmizin, xalqımızın gələcəyi ilə bağlı nikbin proqnozlar gerçəkləşəcək. Məhz bu gün ”Bəsirət ünvanı”mız öz ünvanına - ”Bəsirətin Zəfəri”nə yetişdi”.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli çıxışında bildirib ki, xalqımız hər zaman Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevlə qürur duyur: ”Bu gün iftixarla deyə bilərik ki, Prezident İlham Əliyev regionumuzun yeni tarixinin formalaşmasında həlledici rol oynayır. Dövlətimizin başçısı dünyada sülh və əməkdaşlığa, həm də əmin-amanlığın bərqərar olunmasına böyük töhfələr verir. Bu, Azərbaycan xalqının son yarım əsrdən çox bir dövrdə - 1969-cu ildən başlanan və bu günə qədər davam edən ictimai-siyasi həyatının və real tarixinin ən möhtəşəm nəticəsidir. Xalqımız öz dahi liderlərinin işığında ölkəmizdə müasir inkişafın təmin edilməsinə nail olub, həmçinin dünyanı sağlam məcraya doğru yönəltməyə böyük töhfələr verib”.

İ.Həbibbəyli qeyd edib ki, ”Bəsirət ünvanı” və ”Bəsirətin Zəfəri” kitabları Azərbaycanın yeni liderlik modelinin təqdimatına həsr olunan çox sanballı əsərlərdir: ”Azərbaycanın təcrübəsi göstərdi ki, siyasi varislik real inkişafın və parlaq gələcəyin mühüm təminatıdır. Müstəqillik illərində ”demokratiya”, ”plüralizm” adı altında Qərbin diktə etdiyi ölkələrdə bir çox siyasi eksperimentlərin şahidi olmuşuq. Bu eksperimentlər həmin xalqlara yalnız böhran, qarşıdurmanın bütün təzahürlərini və anarxiya gətirdi. Azərbaycan dövlətinin rəhbərliyində Heydər Əliyev kimi böyük bir düha və sonrakı dövrdə isə İlham Əliyev kimi güclü lider dayandığı üçün anarxiyaya qətiyyən yol verilməyib. Azərbaycan düzgün idarə olunub, uğurla inkişaf etdirilib, nəticədə bugünkü zəfərlərlə nail olunub. ”Bəsirət ünvanı” və ”Bəsirətin Zəfəri” kitabından çıxan ən böyük nəticə elə bundan ibarətdir”.

İ.Həbibbəyli deyib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəfər yürüşü və Böyük Qayıdış prosesi ”Bəsirətin Zəfəri” kitabında liderliyin əsasları, səbəbləri və nəticələri haqqında aparılan bütün təhlillərin yekunu kimi təqdim olunub: ”Bəsirətin Zəfəri” kitabını Azərbaycanın zəfərlər hərəkatının möhtəşəm salnaməsi hesab edirəm”.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov çıxışında bildirib ki, 2025-ci il Azərbaycan xalqının tarixinə iki böyük siyasi hadisənin qeyd olunması ilə daxil olub: ”Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2025-ci il ”Konstitusiya və Suverenlik İli” elan edilib. Cari ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü münasibətilə çoxsaylı tədbirlər keçiriləcəkdir”.

O qeyd edib ki, 1918-1920-ci illərdə müsəlman Şərqində mövcud olan ilk Cümhuriyyətimiz xarici müdaxilə nəticəsində süqut etdi, Konstitusiya qəbul edə bilmədi. Qonşu dövlətlərlə ərazi mübahisələri həll edilə bilmədiyinə görə dövlət suverenliyinə nail olunmadı: ”1991-ci ildə isə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bütün çətinliklərə baxmayaraq, Ümummilli Lider Heydər Əliyev 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunmasına nail oldu. Bu, Heydər Əliyev siyasətinin ən uğurlu addımlarından idi”.

Komitə sədri deyib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxardı: ”Ulu Öndər vətəndaş müharibəsinin qarşısını aldı, qardaş qırğınına imkan vermədi. Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycanın qorunub saxlanması və işğal edilmiş torpaqları geri qaytarmaq, dövlət suverenliyini bərpa etmək üçün atdığı addımları Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirdi və başa çatdırdı. 30 ildən artıq Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayan erməni hərbi birləşmələri 44 günlük Vətən müharibəsi və bir gün davam edən antiterror əməliyyatı nəticəsində darmadağın edildi, torpaqlarımız Ali Baş Komandanın rəhbərliyi altında qəhrəman əsgərlərimiz tərəfindən azad edildi, Azərbaycanın dövlət suverenliyi bərpa olundu, üçrəngli bayrağımız ilk dəfə Azərbaycanın

bütün bölgələrində qürurla dalğalanmağa başladı, Azərbaycan qalib dövlətlərin sırasında yer aldı”.

Komitə sədri çıxışında ”Bəsirətin Zəfəri” kitabının əhəmiyyətinə də toxunub. Onun sözlərinə görə, kitab Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin cahanşümul fəaliyyətinə həsr olunub: ”Müstəqil Azərbaycan dövlətinin memarı, Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidmətləri tarixi faktlarla əsaslandırılır, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda Ali Baş Komandan İlham Əliyevin mübarizəsinin nəticəsi olaraq çağdaş Azərbaycanın uğurları oxucuların diqqətinə çatdırılır”.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev çıxışında bildirib ki, Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin ”Konstitusiya və Suverenlik İli” elan edilməsi tarixi qərardır. Komitə sədri deyib ki, ilk milli Konstitusiyamız Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanıb və 1995-ci ildə ümumxalq səsverməsi nəticəsində qəbul edilib: ”Konstitusiyada ölkəmizdə demokratikləşmə prosesinin əhatə dairəsinin genişlənməsini, vətəndaş cəmiyyətinin fəallığının artırılmasını, vətəndaşların hüquq və azadlıqlarının qorunmasını, fikir plüralizminin təmin olunmasını özündə ehtiva edən mühüm müddəalar yer alıb”.

Onun sözlərinə görə, ölkəmizin bütün ərazisində Konstitusiya quruluşu və suverenliyin tam bərpa edilməsi tarixi nailiyyətdir: ”Bütövlükdə 44 günlük müharibədə və birgünlük antiterror tədbirlərində qazanılan qələbələr son 200 illik tariximizin ən parlaq səhifələrini təşkil edir. Bu qələbələr tariximizdə əbədi qalacaq və həmişə də qürur mənbəyimiz olacaq”.

A.Nağıyev əlavə edib ki, Azərbaycanın uğur və zəfər yolunun bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub: ”Öz xalqından böyük dəstək alan Prezident İlham Əliyev güclü ordu yaratdı, xalq-iqtidar birliyi sayəsində torpaqlarımızı işğaldan azad etdi. Bununla da Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Beləliklə, bu gün regionumuzda yeni reallıqlar yaranıb”.

O vurğulayıb ki, ”Bəsirətin Zəfəri” kitabında da Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən yola geniş nəzər salınıb: ”Dörd fəsildən ibarət olan kitabda Heydər Əliyev fenomeni milli-tarixi kontekstdə təqdim olunub, Ulu Öndərin xalqımız qarşısında misilsiz xidmətlərindən geniş bəhs edilib. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun uğurları, eyni zamanda, yeni çağırışların lideri olan cənab İlham Əliyevin fəaliyyəti ön plana çıxarılıb”.

Sonra çıxış edən Milli Məclisin deputatı Samir Vəliyev bildirib ki, Prezident İlham Əliyevin son iyirmi ildən artıq müddətdə apardığı siyasət bütün dünyada artıq nümunə kimi qəbul olunan inkişaf modelini formalaşdırıb: ”Bu siyasət nə qədər nəticəyönümlüdürsə, onun miqyası nə qədər böyükdürsə, bu barədə yazmaq da bir o qədər böyük məsuliyyətdir. Müəllifi olduğum ”Bəsirətin Zəfəri” kitabı professor Əhməd Vəliyevin müəllifi olduğu ”Bəsirət ünvanı” kitabının məntiqi davamıdır”.

Onun sözlərinə görə, XX əsr Azərbaycanının heç kimdə mübahisə və şübhə doğurmayan bir həqiqəti var - bu, Heydər Əliyev fenomenidir: ”Müdrik, uzaqgörən siyasətçi, bütün varlığı ilə xalqına, Vətəninə bağlı unikal şəxsiyyət olan Heydər Əliyevə ona qədərki iqtidardan çox ağır miras qalmışdı. Azərbaycanın müstəqilliyinin itirilməsi təhlükəsi real idi. Belə ağır vəziyyətdə hakimiyyətin məsuliyyətini öz üzərinə götürmək siyasətçidən böyük cəsarət tələb edirdi. Xalqımız və dövlətimizin xilası missiyası məhz Heydər Əliyevin üzərinə düşdü və o, bu missiyanı özünə xas olan müdrikliklə yerinə yetirməyə nail oldu”.

Millət vəkili qeyd edib ki, yaradılan bünövrə onun üzərində güclü Azərbaycan qurmaq üçün etibarlı zəmin idi: ”Heydər Əliyevin müdrikliyi həm də onda idi ki, bir tərəfdən milli dövlət üçün son dərəcə zəruri olan siyasi varislik ənənəsinin əsasını qoydu, digər tərəfdən isə cənab İlham Əliyevin timsalında bu kursa, milli dəyərlərə, ənənələrə sadiq, eyni zamanda, yeni çağırışları qarşılamağa qadir olan varis-lider yetişdirdi. Ulu Öndərimizin İlham Əliyevi özünün siyasi varisi kimi müəyyənləşdirməsi onun Azərbaycan naminə növbəti tarixi missiyası idi. Cənab İlham Əliyevin bilik və bacarığına, xarizmasına, məsə-

lələrə strateji yanaşmaq qabiliyyətinə, vətənpərvərliyinə, milliliyinə yaxşı bələd olan Ulu Öndərimiz əmin idi ki, ondan həyat və siyasət dərsi almış İlham Əliyev müasir dövrün lideri olmağı, Azərbaycanı gələcəyə aparmağı bacaracaq”.

S.Vəliyev bildirib ki, Azərbaycanın son 20 ildən çox müddətdə keçdiyi yol, daxili və xarici siyasətdə qazanılan uğurlar dahi Heydər Əliyevin seçiminin nə qədər düzgün olduğunu əyani şəkildə təsdiqləyir: ”Cənab İlham Əliyev Ulu Öndərimizin ona bəslədiyi inamı bütünlüklə doğruldub. 2003-cü ildə İlham Əliyevin rəhbərliyi ilə başlayan yolun ən böyük uğuru Qarabağ Zəfərimiz, ölkənin suverenliyinin bərpasıdır”.

Milli Məclisin deputatı deyib ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi ilə əsas ümummilli hədəfimizə çatmışıq: ”Dövlətimizin başçısı heç vaxt qazanılan nailiyyətlərlə kifayətlənmir. Prezident İlham Əliyev daim yeni reallıqlara və çağırışlara uyğun gündəlik müəyyənləşdirir, milli gücü məharətlə qarşıya qoyulan hədəflərə çatmağa səfərbər edir. Postmüharibə dövründə başlayan yeni strateji mərhələ üçün müəyyənləşdirilən beş mühüm prioritetdən biri işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsidir. Hazırda bu istiqamətdə möhtəşəm addımlar atılır”.

”Bir vaxtlar böyük həyat təcrübəsinə malik olan Ulu Öndərimiz bizlərə bəsirətin ünvanını göstərirdi. Onun həmişə zamanı qabaqlayan ideyaları artıq reallıqdır. Aradan 20 ildən bir qədər çox vaxt ötəndən sonra biz artıq bəsirətin zəfərindən danışırıq. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlər, uğur salnaməsi bizi gələcəyə daha nikbin baxmağa sövq edir. Bu gün qüdrətli Azərbaycan regionda yeni reallıqlar yaradan və əsas söz sahibi olan dövlətdir. Əminik ki, gələcəkdə də belə olacaq, Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycanı yeni zirvələrə yüksəldəcək”.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

İrəvan nə istəyir?

Rusiya səfiri: "Ermənistan istər Aİİ-də, istərsə də Aİ-də ola bilər, amma…"

Ermənistan bu gün bir ayağı burda, o biri ayağı gorda olan xəstəyə daha çox oxşayır. Guya balaslı siyasət yürüdür, həm Avrasiya İqtisadi İttifaqında (Aİİ), həm də Avropa İttifaqında (Aİ) təmsil olunmağın nümunəsini təqdim etmək istəyir. ABŞ-la müttəfiqlik haqda memorandum imzalayır, "axırda-naxırda" bir olacaqlarını elan edir, digər bir tərəfdə isə Vaşinqtonun əzəli düşməni İranla "qardaş-bacı" siyasətindən danışır. Əlbəttə, bütün bu gedişlər "əlacsızlıq" sindromudur, Ermənistan başını itirib. Mümkün deyil ki, İranla və ABŞ, yaxud Avropa İttifaqı ilə bağlanan müqavilələrdə bir-birinə zidd olan maddələr olmasın. Var və bu ziddiyyətlər səbəbindən İrəvanın başı çox ağrıyacaq. "Ermənistan həm Avrasiya İqtisadi İttifaqının (Aİİ) həm də Avropa İttifaqının üzvü ola bilməz". Bunu Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin deyib. O, eyni zamanda, İrəvanın Moskva və Aİİ ilə əməkdaşlığının respublikanın iqtisadi inkişafında əsas amillərdən biri olduğunu vurğulayıb. "Rusiya tərəfi ilkin olaraq bütün i-ləri nöqtələdi: istər Aİ, istərsə də Aİİ və hər ikisində olmaq mümkün deyil. Və bu, Rusiya tərəfinin mövqeyi deyil, obyektiv reallıq məsələsidir, çünki dövlət eyni vaxtda iki gömrük ittifaqının üzvü ola bilməz", - Sergey Kopırkin Ermənistanın "24News" portalına müsahibəsində bildirib. O, Rusiya baş nazirinin müavini Aleksey Overçukdan sitat gətirib ki, "Ermənistanın Aİ-yə daxil olması "Titanik"ə bilet almaq kimidir".

"Reallıqlar var: Ermənistanın Aİİ və Rusiya Federasiyası ilə əməkdaşlığı ölkənin iqtisadi inkişafının əsas amillərindən biridir, bunu statistika da göstərir. Aİ-də nələrin baş verəcəyi gələcək üçün sualdır. "Hələ ki, Ermənistan və Aİ arasında ticarət dövriyyəsinin dinamikası mənfidir", - Rusiya səfiri qeyd edib. O vurğulayıb ki, söhbət Ermənistanın ona uyğun variantı seçmək suveren hüququndan gedir.

Fevralın 12-də Ermənistan parlamenti ölkənin Aİ-yə qəbulu prosesinin başlanması ilə bağlı qanun layihəsini birinci oxunuşda təsdiqləyib. Yekun qərarın verilməsi üçün ölkədə referendumun keçiriləcəyi gözlənilir. Eyni zamanda Ermənistan hakimiyyəti AİİdƏn çıxmaq planlarını da istisna edir. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Ermənistanda Avropa İttifaqına istiqamətlənmənin ölkəyə "əlavə dividendlər" gətirəcəyinə inanan siyasi qüvvələr var.

Kopırkin hesab edir ki, Ermənistanın təhlükəsizliyinin təminatı Qərb qüvvələri deyil, Rusiya Federasiyasının hərbçiləri və sərhədçiləridir. "Rusiya bazası burada qalır, sərhədçilərimizin mövcudluğu prinsipial olaraq dəyişməyib...". Hərbi-texniki əməkdaşlıq məsələsi Ermənistan-Rusiya münasibətlərinin gündəmində qalır. Rusiyanın 102-ci hərbi bazası və sərhədçilərinin olması Qərb qüvvələrinin vədlərini deyil, Ermənistanın təhlükəsizliyini təmin edir: "Mən bildiyimə görə, heç kim Ermənistana Rusiya-Ermənistan münasibətlərində olduğu kimi heç bir Qərb təhlükəsizlik zəmanəti verməyib. Hər halda mən heç bir sənəd və ya ifadə görməmişəm. Təhlükəsizlik və hərbi-siyasi alyans sahəsində əməkdaşlığımızın əsas komponentləri toxunulmaz olaraq qalır. Rusiya bazası burada qalır, sərhədçilərimizin mövcudluğu prinsipial olaraq dəyişməyib və bu, Ermənistan rəhbərliyi tərəfindən kifayət qədər müsbət qiymətləndirilir".

Səfirin sözlərinə görə, hərbi-texniki əməkdaşlıq məsələsi Ermənistan-Rusiya münasibətlərinin gündəmində qalır. "Mövcud vəziyyət proseslərə müəyyən təsir göstərir, lakin bizdə bu sahədə çox böyük məlumat toplanmışdır", o əlavə edib. Kopırkin vurğulayıb ki, Rusiya tərəfində mövcud olanı qorumaq üçün siyasi iradə var. Bundan əvvəl İrəvan Rusiya Federasiyasından pulu ödənilmiş silahları hələ almadıqlarını, lakin bu məsələni tərəfdaşlıq şəraitində həll etməyə hazır olduqlarını bildirmişdi. Ermənistan hakimiyyəti də silah alışlarını diversifikasiya etmək niyyətində olduqlarını bəyan edib. Xüsusilə, respublika müdafiə sektorunda Hindistan və Fransa ilə fəal əməkdaşlığa başlamışdır.

Kremlin Ukrayna və Ermənistanda məqsədi eynidir

Rusiyada Zelenskini öz marionetləri ilə əvəz etməyə can atırlar. Onlar Ermənistan üçün də eyni şeyi istəyirlər. Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin bəyanatı ilə yəqin ki, hər kəs artıq tanışdır. Bildirilib ki, Ermənistanın informasiya məkanında, xüsusən də Telegram kanallarında Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsini Azərbaycanla Ermənistan arasında silahlı münaqişənin başlanmasına ilham vermək və ya onu asanlaşdırmaq cəhdində ittiham edən saxta məlumatlar yayılır. Dezinformasiyaçılar "bəraət qazandırırlar" ki, yeni Azərbaycan-Ermənistan müharibəsi Rusiyanı "ikinci cəbhə" açmağa, deməli, hərbi qüvvələrini dağıtmağa məcbur edəcək ki, bu da Ukraynanın xeyrinə olacaq. Məlumat əməliyyatına əsas kimi Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin Ukrayna müdafiə nazirinin müavini İvan Qavrilyuka ünvanladığı iddia edilən saxta hesabat dayanıb. Yayılan vərəqdə bir sıra kobud səhvlər var və Ukraynanın rəsmi sənədlərinin icrası tələblərinə cavab vermir, deyə məlumatda bildirilir.

Xüsusilə vurğulanır ki, bu informasiya əməliyyatının həyata keçirilməsi Ukraynanı nüfuzdan salmaq, Ukrayna-Ermənistan və Ukrayna-Azərbaycan münasibətlərini pisləşdirmək məqsədi daşıyır ki, bu da ilk növbədə işğalçı Rusiya dövləti üçün faydalıdır. Və bu qənaətlə razılaşmamaq mümkün deyil. Rusiya həmişə çalışıb, çalışır və gələcəkdə də çalışacaq ki, Ukraynanı gözdən salsın, onun zəifləməsinə nail olsun.

Təəccüblü deyil ki, Rusiya xüsusi xidmət orqanları bu dəfə Ukraynanı Ermənistanla Azərbaycan arasında yeni müharibənin qızışdırılmasında günahkar kimi təqdim etməyə çalışıblar. Bu saxtakarlığın müəllifləri Ukraynanın sadəcə olaraq regionumuzdakı vəziyyətə təsir etmək imkanının olmadığını gözdən qaçırırlar. Ermənistan mətbuatı yazır: "Bəli, görünə bilər ki, Ermənistanın dəstəyi hiss olunmur, lakin Kiyevdə Ukrayna rəhbərliyi çox yaxşı bilir ki, bizim ölkənin başında məhz eyni demokratik qüvvələr dayanır. Baş nazir Nikol Paşinyan və prezident Vladimir Zelenski güclü və qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurublar. Vaxt gələcək ki, biz hamımız ölkəmizin Ukraynaya dəstəyinin daha bariz nümunələrini görəcəyik. Və biz Ukraynaya minnətdarıq ki, üç ildən artıqdır ki, Rusiyanın qanlı ordusuna müqavimət göstərir. Ukrayna bir milyona yaxın rus əsgərini, 10 mindən çox tankı, 21 mindən çox zirehli texnikasını, 370 təyyarəsini və 331 helikopterini məhv edib. Bu, nəhəng bir qüvvədir, böyük bir ordudur. Və bütün bunların onda biri ölkəmizə qarşı yönəlsəydi belə, Ermənistan üçün dövlətçiliyin itirilməsi təhlükəsi aşkar olardı. Üstəlik, belə bir ssenari reallaşarsa, Gümrüdəki Rusiya hərbi bazası və Rusiya təbliğatının hər hansı saxtakarlığının yayılmasında fəal iştirak edən eyni "beşinci kolon" da ona qoşulacaq. Hakimiyyət qazanmaq üçün hər şeyə hazırdırlar. Nə Ermənistanın demokratiya yolundan dönməsi, nə də ölkənin faktiki müstəqilliyini itirməsi".

Bəli, məhz buna görə də Moskvanın göstərişi ilə "beşinci kolon"un nümayəndələri Rusiyanın işğalı altında olan Ukrayna Donbasına səfərlər ediblər. Bu, həm də İrəvanla Kiyev arasında münasibətlərdə çat yaratmaq işinin tərkib hissəsi idi. Ukrayna tərəfi də bu təxribatın arxasında hansı gücün dayandığını anlayıb. Ukrayna hazırda çətin günlər yaşayır. Həm də ona görə ki, Birləşmiş Ştatlar yeni prezidenti Donald Trampın dövründə ABŞ-ı böyük gücə çevirən ənənələrdən çox açıq şəkildə ayrılıb. Artıq Donald Trampın maliyyə maraqlarını Vladimir Putinin ətrafı ilə uzun və möhkəm bağladığına dair çoxlu sübutlar var.

ABŞ Nümayəndələr Palatasının spikeri Mayk Conson deyib ki, Ukrayna prezidenti Vladimir Zelenski "təşəkkür əlaməti olaraq özünü toparlayıb danışıqlar masasına qayıtmalı, yoxsa başqası ölkəyə rəhbərlik etməlidir". O, Kreml təbliğatının əsas povestini demək olar ki, sözbəsöz təkrarlayıb. Rusiyada da Zelenskini öz marionetləri ilə əvəz etməyə can atırlar. Onlar digər postsovet ölkələri üçün də eyni ssenarini tətbiq etməyi istəyirlər. Ona görə də bütün ölkələr gələcəyi naminə birləşməlidir.

Köçəryan-Sarkisyan savaşı

Ermənistanda son 3-4 ildə müxalifətin bu qədər aktiv etirazı və hücumları olsa da Paşinyan hökuməti 2021-ci ildə keçirilən növbədənkənar parlament seçkilərində nəinki ayaqda qala bildiyi, hətta qalib gəldi. Və bununla bir çox xarici, hətta yerli ekspert və medianı təəccübləndirdi. Deməli, Ermənistanın 44 günlük müharibədəki məğlubiyyətini Paşinyanın ayağına yazan ermənilərin sayı azdır, yoxsa başqa nəticələr ortaya çıxardı. Ona görə də Paşinyan nəinki ölkəni idarə etməkdə davam edir, əksinə, mövqeyini daha da möhkəmləndirib. Bəs bu, niyə baş verdi?

Bu sualın cavabı zahirdədir - hər şey Krılovun nağılındakı klassik qu quşu, xərçəngkimi və pike bənzəyən müxalifətin sıralarındakı ixtilafdır. Ermənistanda bəzi insanlar çoxdan şübhələnirdilər ki, indiki hakimiyyətin əsas rəqibləri - Köçəryanla Sarkisyan arasında qara pişik qaçır. Belə olmasaydı, müxtəlif bloklarla növbədənkənar seçkilərə getməzdilər. Axı məntiq özü onlara deyirdi ki, bir yumruqda birləşmək və Paşinyanı birlikdə əzməyə çalışmaq lazımdır. Amma yox - onlar öz aralarında razılığa gələ bilmədilər, 44 günlük müharibədən sonra və 2021-ci il seçkiləri ərəfəsində onlara çox yaxın görünən portfelləri bölə bilmədilər. Nəticədə Köçəryanla Sarkisyan arasında ziddiyyətlər sağlam düşüncədən üstün oldu və onlar seçkilərdə məğlub oldular. Və bu gün parlamentdə jurnalistlərlə söhbətində Köçəryanın "Ermənistan" blokunun deputatı Aqnessa Xamoyan nəhayət, bəzilərinin çoxdan şübhələndiyi şeyi - Robert Sedrakoviç və Serj Azatoviç, yumşaq desək, bir-biri ilə anlaşa bilmədiklərini söylədi. Yəni, Köçəryanın 2008-ci ildə hakimiyyəti mahiyyətcə Sarkisyana təhvil verməsinə baxmayaraq, üçüncü prezident hakimiyyətdə olduğu illər ərzində sələfindən qorxurdu. Sarkisyan hakimiyyəti möhkəm tutmuşdu və bunu heç kimlə, xüsusən də Köçəryanla bölüşmək fikrində deyildi. Bu, ikinci prezidentin Sarkisyanın əsas məqsədi ikinci prezidentlik müddəti başa çatdıqdan sonra hakimiyyətdə qalmaq olan konstitusiya islahatından narazılığını izah edir. Sarkisyan sistemli şəkildə Ermənistanın siyasi meydanını Köçəryanın himayədarlarından təmizlədi. 2016-cı ilin aprel müharibəsindən sonra Sarkisyanın hərbi idarədən uzaqlaşdırdığı müdafiə naziri Seyran Ohanyan olub. Eyni zamanda Sarkisyan ailəsinin nəzarətində olan mətbuatda Köçəryana qarşı təbliğat aparılıb. Ancaq bunun artıq heç bir əhəmiyyəti yoxdur. Köçəryanla Sarkisyan istədikləri qədər yelkəni dəyişdirə bilərlər.

Ermənistanın ikinci və üçüncü prezidentlərinin elə qanlı izi, elə korrupsiya cığırı var ki, onların hakimiyyətə qayıdışı həmişəlik bağlıdır. Məhz buna görədir ki, onlar bütün bu illər ərzində Paşinyanı devirə bilməyiblər. Köçəryanın ətrafı tərəfindən Sərkisyana zərbə endirmək əmri verilən xanım hələ də anlamırdı ki, 2018-ci ildə ermənilər Paşinyan üçün yox, ikinci və üçüncü prezidentlərə nifrət etdikləri üçün küçələrə çıxıb. Köçəryanla Sarkisyan ölkəni və xalqı uçuruma aparıb. Ölkə dəyişikliklərə, korrupsiyadan və köləlikdən azad olmaq istəyirdi. Bu gün Köçəryanın və Serjikovun tərəfdarları bir-birinə istədikləri qədər palçıq ata bilirlər. Onlar nə qədər çox baş əysələr, erməni cəmiyyətinin bu rüsvayçı keçmişdən əbədi olaraq xilas olmaq istəməsi bir o qədər məntiqli olur.

V.VƏLİYEV

APA.AZ

Ramazan:

Ruhu, nəfsi və bədəni tərbiyə edən ay

Nəfsi tərbiyə etmək müqəddəs kitab Quranda Allahın dönə-dönə işarə etdiyi xüsusiyyətdir. İnsanı pis əməllərdən təmizləmək, axirətə münasib ruhda tərbiyə etmək, əslində, bütün dinlərdə vacib əməl kimi göstərilir. İnsan dünyaya gələndə ailəsini, ana-atasını, öz qaşını-gözünü, yerini -irqini, cinsini-rəngini seçə bilməz. Amma yaradan insana heç bir canlıya vermədiyi bir üstünlük verib - mənəviyyatını dəyişmək səlahiyyəti. Ramazan ayının vacib əməllərindən olan oruc ruhun bu saflaşmasını təmin edən ən mühüm ünsürlərdən biridir.

Ac insan - kamil insan

İnsan yalnız ac olduqda başqalarının nə yaşadığını düşünə bilir. Nəfs də ac qalmadıqca yaradanın qüdrət və səltənətini fərq etmir. İnsanın təbiəti belədir. Oruc tutmaq insan ruhunu bir növ təlimə məruz qoymaqdır. Necə ki, hərbi xidmətdə təlim keçən hərbçilər fiziki güclərini imtahana çəkən hərbi təlimdən sonra onlara verilmiş fasiləni nemət bilirlər, eləcə də ruh və fiziki bədən də təlimdən, yəni orucdan sonra mövcud nemətlərdən faydalandıqda tərbiyə olunurlar.

Əslində, oruc bizə acizliyimizi xatırladır. Yemək yeməsək, su içməsək bir qüdrətimizin olmadığını anlayırıq. Oruc tutduqda fiziki gücümüz azala bilər, amma mənəvi gücümüzə güc qatılır. Əksəriyyət Ramazandan sonra dəyişdiyini, qəribələşdiyini düşünür. Bu, orucun tərbiyə etdiyi ruhla bağlıdır. Nəfsin təmizlənməsində orucun xidmətlərini danmaq olmaz.

Oruc bədən tərbiyəsinin ən yaxşı formalarından biridir, özünü təmizləmənin ən sadə forması hesab olunur və şəhvət, ehtiras, həzz kimi hislərdən arınmağı öyrədir. Daha üst səviyyəli tərbiyə üsulları isə gözün, qulağın, ağzın və qəlbin oruc tutması məsələsidir. Ac qalıb qeybət edirsənsə, gözün şəhvətinə alət olursa, qulağın maddi dünyanın asılısıdırsa, qəlbin pis əməllərdən arınmırsa orucu tutmağın mənası da yoxdur.

Oruc ruhun öz sahibini xatırlaması üçün bir tərbiyə növüdür. Biz orucun yalnız xeyirxahlıq tərəfini görürük. Oruc tutmaq bizə başqa insanlarla aramızda olan bağlılığımızı göstərir. Qəddar və təkəbbürlü insanlar başqalarına diqqət yetirməyən insanlardır. Oruc, özünüzü başqasının yerinə qoyaraq, digərini anlama vəziyyətini təmin edir. Yəni oruc əslində empatiyadır. Ac qalmaqla həm öz fiziki və ruhi bədənini tərbiyə etmiş olursan, həm də özünü başqalarının yerinə qoyaraq haldan anlayırsan.

Ruhi bədənin təmizlənməsi dedikdə əksəriyyət düşünür, "axı ruh necə murdar ola bilər ki, təmizlənməyə ehtiyac duysun?". Ruh, əslində, murdar deyil. Amma nə qədər təmiz olsa da, təmizlənməyə yenə də ehtiyac duyur. Bir ev düşünün, tərtəmiz, gül kimi. Amma pəncərəsində pərdələr var və ora günəş işığı düşmür. Siz pərdələri açmayınca o tərtəmiz eviniz işıqlanmır, nurlanmır. Ruh da eynən belədir. Təkəbbür, ikiüzlülük, yalan, kin, şəhvət və həzz asılılığı ruhun üzərinə örtülmüş pərdələrdir və bu pərdəni ruhumuza bizim maddi dünya asılılığımız örtür. Onu orucla tərbiyə etdikdə üzərindəki pərdə qalxır, altındakı cövhər parıldayır. Siz özünüz də ruhunuzun təmizliyindən heyrətə gəlirsiniz, "bu mənəmmi?" deyə sual edirsiniz.

Orqanizmin yenidən doğulması desək, yeridir

Təbii ki, Ramazan orucunun mənəviyyat baxımından faydaları çoxdur. Səbrin öyrənildiyi bu ayda insanlar bir daha tolerantlığı, empatiyanı və anlayışı öyrənirlər. Empatiya kimi vacib bir duyğu ictimai həyatda öz dəyərini bir daha sübut edir. İmkanı olanın olmayana kömək etdiyi və vəziyyətini anladığı bu dövr həqiqətən insani hisslərimizin yenidən üzə çıxmasına kömək edir.

Mənəviyyatımız qədər maddi bədənimiz də dəyişilir oriclu olduqda. 1 ay oruc tutan insanın orqanizmində nələr baş verdiyini bilirsinizmi? Ac qalmaq yağların yanmasını sürətləndirir, mədə və bağırsaqlar dincəlir, zehni funksiyalar güclənir, bədən ağır şərtlərə alışır, dəri canlanır və işıqlanır, insulin müqavimətinə müsbət təsir göstərir, immunitet sistemini gücləndirir, ürək sağlamlığını qoruyur, hüceyrələri təmir edir, yaşlanmanın təsirlərini gecikdirir.

Oruc tutmaq möcüzə yaradır

İstidə oruc tutmaq qış aylarına nisbətən çətin olur. Aclığa dözmək nisbətən rahatdır, lakin isti aylarda susuz qalmaq orqanizmə çətinlik yaradır. Bu il Ramazan ayı sərin aylara təsadüf etdiyindən oruc tutmaq da nisbətən rahat oldu. Alimlər isə həm ac, həm susuz qalmağı "aclıqla müalicə" kimi dəyərləndirərək orqanizmə faydalarından bəhs edirlər.

Aclıqla müalicə orqanizmdə yığılan tullantıların xəstəliklərə səbəb olması və bu tullantıların təbii yolla atılması üçün müalicə üsuludur. Xəstəliklərin sağalması, yeni yarana biləcək xəstəliklərin qarşısının alınması üçün düzgün oruc tutmaq bədəndən zərərli maddələrin çıxarılması deməkdir.

Əslində, bütün xəstəliklərin əsas mənbəyi tullantı maddələrin (iltihab, selik, toksinlər və s.) orqanizmdə toplanmasıdır. Bunun ən mühüm səbəbi yanlış və həddindən artıq qidalanmadır. Dövrümüzün qidası getdikcə daha çox süniləşir. Heç bir qida dəyəri olmayan, lakin orqanizm üçün zərərli maddələr olan bu qidalar orqanizmin tarazlığını pozur. Bu gün insanlar həm qeyri-təbii qidalar yeyirlər, həm də ehtiyaclarından on-on beş dəfə çox istehlak edirlər. Nəticədə bədəndə çirklənmə baş verir.

Sağlam və normal qidalandığını zənn edən adamın üç-dörd gün oruc tutduqdan sonra ağız qoxusu yaranır. Bu, onun bədəninin tullantılarla dolu olduğunu göstərir. Bədən bir gün bu tullantıları xaric etmək istədikdə xəstəliklər yaranır. Xəstəliklər əslində sağalmanın yolunu göstərən siqnallardır. Ağrı və narahatlıq kimi əlamətləri diqqətlə izləmək və bədənin dilini anlamağa çalışmaq lazımdır. Bu gün insanlar aclıqla yox, dərmanlarla müalicəyə çalışırlar. İnsan ac qalmaqla özünü təmizləmək əvəzinə dərmanlarla, müxtəlif müalicə üsulları ilə özünü sağaltmağa çalışır, əslində isə orqanizmini daha da çirkləndirir.

Oruc imtahandır, aclıq sağlamlıq

Oruc tutmanın ilk 3 günü çətin keçir, bu, aclıqla müalicənin də ən ağır günləridir. Əgər oruc tutmaq həm də aclıqla müalicə üçün edilirsə, yaxşı olar ki, ilk 3 gün həkimlə məsləhət edilsin. Aclıqla müalicəyə başlayan insanlar bu günlərdə tez-tez panikaya düşürlər, müalicəni dayandırır və yenidən aclıq müalicəsi etmək qərarına gəlirlər. Çünki bu günlərdə yeməklə bağlı hər cür söz, görüntü, qoxu və s. adamı narahat edir.

Ac qaldığı üçün əhval dəyişikliyi, əsəbilik, yuxusuzluq baş verir, tez çəki itirilir. İnsan aclıq hissini yatırıb yemək yeməyi dayandırdıqda, könüllü aclığa dözdüyü, aclıq və dad hisslərini nəzarət altına aldığı üçün maddi və ruhi istəklərini nizamlaya bilir. Yəni aclıqla müalicə insanı ruhən sağlamlaşdıran bir üsuldur. Əgər insanın siqaret və içki kimi asılılıqları varsa, aclıq müalicəsinin ilk günləri onun üçün işgəncə kimi olacaq. Ancaq oruc tutmaq, habelə aclıqla müalicə, xüsusən də pis vərdişləri olan və ondan əl çəkə bilməyən insanlar üçün inanılmaz bir fürsətdir. Ac olanda hiss etdiyimiz ağrılar, içimizdəki tullantı maddələrin xəbərçisidir. Bu tullantılar təmizləndikcə orqanlar həyat enerjisi ilə dolmağa başlayacaq və daha gümrah olacaq.

Aclıqla müalicənin ikinci mərhələsi 3-cü və 4-cü günlərdən başlayır və 6-cı və 10-cu günlərə qədər davam edir. Bu mərhələdə insanın ağzından aseton qoxusu gəlir, bu toksinlərin bədəndən xaric olması deməkdir. 3-cü gündən sonra aclıq hissi azalır, hətta yox olur, lakin su içmək istəyi artır. Orqanizmin müdafiə sistemi orqanlardakı tullantıları çıxarmağa başlayır və bu maddələr qana qarışır. Qan ağciyərlərdən keçərkən, həmin tullantı maddələr aseton qoxusu yayır. Bu arada ürək döyüntüsündə artım olur. Çünki ürək zəhərlənmiş qanı tez vuraraq ondan xilas olmaq istəyir. Su içmək istəyinin artması normaldır. Su dərhal qanla qarışacaq, tullantıları özünə çəkəcək və onların böyrəklər vasitəsilə xaric olmasını təmin edəcək.

Ramazanda tutulan oruc qismən orucdur, aclıqla müalicə zamanı tutulan oruc tam. Tam orucdan, yəni aclıqla müalicədən sonra həssas qidalanma prosesinə başlanmalıdır. Neçə gün ac qalmaq, qidalanmaya necə keçmək və bu prosesdə nə yemək lazım olduğunu mütəxəssis müəyyən etməlidir.

Lalə Mehralı

Azərbaycan uğurları ilə yeni tarix yazır

Azərbaycan bütün sahələrdə böyük zəfərlərə imza atır və uğurların bundan sonra da davam etdiriləcəyi şübhəsizdir. Çünki bu siyasətin təməli Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub və hazırda əsası qoyulan siyasət ölkə Prezidenti İlham Əliyev tərəfindən müdrikliklə davam etdirilir. Ulu Öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamı üzərində qurulan siyasət nəticəsində ötən 21 il ərzində misilsiz uğurlara imza atılıb. Birmənalı şəkildə qeyd etmək olar ki, sosial-iqtisadi nailiyyətlərin davamlı və möhkəm olmasının əsasını "Əsrin müqaviləsi" təşkil edir. Müqavilə 1994-cü ilin sentyabr ayının 20-də Azərbaycanın Dövlət Neft Şirkəti ilə 6 ölkənin 10 şirkəti arasında bağlanmışdır. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. "Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. Həmin müqavilə daha sonra 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açmışdır. "Əsrin müqaviləsi"nin imzalanması mərasimdə Ulu Öndərimiz Heydər Əliyevin tarixi çıxışında demişdir: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".

Bəli, Dahi Öndərimizin dediyi önəmli fikirlər reallığa çevrildi. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi misilsiz layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirildi. TAP layihəsi ilə bağlı işlər yekunlaşmaq üzrədir. Həmçinin "Əsrin müqaviləsi" 2050-ci ilə qədər uzadılıb. Eyni zamanda, dövlətimizin başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib.

Azərbaycan qələbələrin mərkəzinə çevrilib

Görülən fundamental işlər fonunda əldə olunan uğurlar bir daha təsdiq edir ki, Azərbaycan xalqı 2003-cü il prezident seçkilərində Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsi üçün Cənab İlham Əliyevin Prezident seçilməsinə səs verməklə müdrik qərar verib. Ümumilikdə ötən illər ərzində ölkədə aparılan düzgün və əsaslı sosial iqtisadi siyasətin uğurlarına nəzər saldıqda ortaya çox böyük uğurlu nəticələr çıxır. Məlum olur ki, ötən illər ərzində ümumi daxili məhsul (ÜDM) 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, ÜDM-nin real həcmi 4 dəfə artıb;

- Dövlət büdcəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan çoxdur;

- Ötən illər ərzində ölkəmizdə dövlət büdcəsinin illik sosial müdafiə xərcləri 20 dəfədən çox artıb. Bu dövrdə minimum əməkhaqqı 38 dəfə, orta aylıq əməkhaqqı 12 dəfə, minimum pensiya 14 dəfə, orta aylıq pensiya 18 dəfə, yaşa görə orta aylıq pensiya 19 dəfə, əlilliyə görə pensiya 14 dəfə, ailə başçısını itirməyə görə pensiya 19 dəfə artıb. Pensiya üzrə ödənilən illik vəsait həmin dövrdə 30 dəfə artaraq 6 milyard manata çatıb.

- 2003-cü illə müqayisədə 2022-ci ildə yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizə enib, orta aylıq əməkhaqqı 77.4 manatdan 839,4 manata yüksəlib;

- Qeyri-neft-qaz ÜDM-i 4,1 milyard ABŞ dollarından 41,1 milyard ABŞ dollarına çatıb;

- Ölkənin xarici ticarət dövriyyəsi 3,8 milyard ABŞ dollarından 52,7 milyard ABŞ dollarına yüksəlib;

- İxracın həcmi 2,2 milyard ABŞ dollarından 38,1 milyard ABŞ dollarına çatıb;

- Qeyri-neft ixracı 0,26 milyard ABŞ dollarından 3,05 milyard ABŞ dollarına yüksəlib;

-2003-2022-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatı 2,2 dəfə, nəqliyyat sektoru 4,9 dəfə, turizm və ictimai iaşə 18,9 dəfə, informasiya və rabitə sahəsi isə 23 dəfə artıb;

-Xarici ticarətin profisiti 0,5 milyard ABŞ dollarından 23,6 milyard ABŞ dollarınadək artıb;

-Birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 9,3 faizini təşkil edir;

-Strateji valyuta ehtiyatları 1,4 milyard ABŞ dollarından 66,1 milyard ABŞ dollarına yüksəlib;

-İqtisadiyyata yönəldilən investisiyalar 2,8 milyard ABŞ dollarından 17,1 milyard ABŞ dollara qədər yüksəlib. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib;

-Sənayedə məhsul istehsalının həcmi 4,0 milyard manatdan 86,4 milyard manata qədər yüksəlib;

-Sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı 54,9 faizdən 87,6 faizə qədər yüksəlib;

-Dövlət tərəfindən həyata keçirilən dəstək tədbirləri nəticəsində 2003-2022-ci illər ərzində iqtisadi artımın əlavə hərəkətverici qüvvəsi olan qeyr-neft-qaz sənayesində yaradılmış əlavə dəyər real olaraq 4,7 dəfə artıb;

-Ötən müddət ərzində məhsul buraxılışının nominal həcmi 13,5 dəfə böyüyüb, əhalinin gəlirləri 10,5 dəfə artıb;

- Dövlət Proqramları əsasında regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir;

- Ölkəmizin 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqroparkın yaradılması üzrə işlər aparılır;

- Ötən müddət ərzində əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 450-dən çox uşaq bağçası, 760-a yaxın tibb müəssisəsi, 17 min kilometrdən çox avtomobil yolu, 500-dən çox körpü və tunellər tikilib və ya təmir olunub, 43 Olimpiya İdman Kompleksi tikilib;

- Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində müxtəlif sahələri əhatə edən layihələrin icrası məqsədilə dövlət büdcəsindən 12 milyard manatdan artıq vəsait ayrılmışdır;

- Sahibkarlıq subyektlərin sayı 180 mindən 1,5 milyona qədər artıb;

- Ötən müddət ərzində 23 mindən artıq kiçik müəssisə və obyekt özəl mülkiyyətə keçib;

Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezident İlham Əliyev 2003-cü ildən sonra Azərbaycanda həyata keçirilən uğurlu siyasət nəticəsində əldə olunan nailiyyətlər barədə yerli televiziya kanallarına verdiyi müsahibəsində bildirir ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi: "Çünki hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. O vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərir ki, güclü lider olmadan və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi. Hesab edirəm ki, bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik, çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. 1993-2003-cü illərin hadisələrinə nəzər salsaq görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi".

Böyük qələbələrin əsasını torpaqlarımızın işğaldan azad edilməsi təşkil edir

Təbii ki, ölkəmizdə qazanılan uğurların, əldə olunan nailiyyətlərin yüksək nöqtəsi 30 il erməni işğalı altında olmuş torpaqlarımızın 44 günlük Vətən Müharibəsi ilə azad edilməsidir. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün çəkən Vətən Müharibəsi ilə Azərbaycan Ermənistanın silahlı qüvvələrini məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi, torpaqlarımız tam şəkildə azad edildi. Bununla da Müzəffər Ali Baş Komandanımız və rəşadətli ordumuz böyük qələbəni Azərbaycan xalqına bəxş etdi. Torpaqlarımızın azadlığa qovuşmasının ardınca Azərbaycan Qarabağda antiterror əməliyyatları həyata keçirməklə Xankəndidə və ətraf ərazilərdə kök salan terrorçuları və onların rəhbərlərini zərərsizləşdirdi. Möhtəşəm qələbənin qazanılması ilə Azərbaycan bölgədə və dünyada yeni reallıqlar yaratdı. Bu gün işğaldan azad edilən ərazilərimizdə geniş quruculuq, bərpa, tikinti işləri həyata keçirilir. İnsanlar yenidən qurulan doğma yurdlarına qayıdırlar. İndiyədək işğaldan azad olunmuş ərazilərdə 8517 nəfərin (2228 ailə) daimi məskunlaşması təmin edilib. 2022-ci ilin 19 iyul tarixindən başlayan köç karvanı ilk dəfə Zəngilan rayonunun Ağalı kəndinə yola düşüb. İlk köç karvanı 53 nəfərdən (10 ailə) ibarət olub və onlar müharibənin bitməsindən cəmi 1 il 8 ay sonra (616 gün) öz doğma torpaqlarına yenidən daimi yaşamaq üçün qayıdıblar. Azad olunmuş ərazilərdə tikinti və yenidənqurma işlərinin sürətlə davam etməsinin nəticəsidir ki, 2024-cü ilin III rübündə daha 755 nəfər (231 ailə) öz doğma torpaqlarına geri qayıdıb. Qarabağımızın incisi, Türk dünyasının "mədəniyyət paytaxtı" olan Şuşa şəhərinə 2024-cü ilin 9 may tarixində 88 şuşalının (20 ailənin) köçürülməsi təmin edilib. Hazırda Şuşada 204 ailə və ya 763 nəfər məskunlaşıb. Digər işğaldan azad edilən ərazilərdə əhalinin məskunlaşması davam edir. Əminliklə demək olar ki, çox qısa müddətdə əhali öz doğma yurdlarında məskunlaşacaqlar. Bununla da Azərbaycan Qarabağı işğaldan azad etməklə qələbə zəfəri yazdığı kimi quruculuq və abadlıq, təmir, tikinti işlərini uğurla həyata keçirməklə yeni bir tarix yazacaq.

İLHAM ƏLİYEV

Hədiyyələrin məzmunu maddi olaraq müxtəlif ola bilər

8 Mart - Beynəlxalq Qadınlar Günüdür. Qadın hərəkatının tarixi 1857-ci ildə Nyu-Yorkda qadınların 12 saatlıq iş gününə etirazı ilə başlayıb. 1910-cu ildə alman sosialist qadın Klara Setkin 8 martın dünya qadınlar günü kimi qeyd edilməsinə nail olub. 1977-ci ildə BMT bu günü qadın günü kimi rəsmiləşdirib.

Qadınlar bayramı Azərbaycanda da geniş qeyd edilir. 1965-ci ildən keçmiş SSRİ-də 8 Mart - Beynəlxalq Qadınlar Günü istirahət günü elan olunub. Azərbaycan müstəqillik əldə etdikdən sonra da 8 Mart - Beynəlxalq Qadınlar Günü ölkədə qeyri-iş günüdür. Azərbaycan qadınları artıq cəmiyyətin aparıcı qüvvəsinə çevriliblər. Milli əxlaqi dəyərlərimiz, adət-ənənələrimiz, dilimizin saflığı məhz analarımızın müdrikliyi sayəsində çətin və mürəkkəb dövrlərin sınağından çıxa bilib. Dünyanın bir çox ölkələrinin qadınlarından əvvəl seçib-seçilmək hüququ əldə etməsi, elm, mədəniyyət və digər sahələrdə qazandığı uğurlar Azərbaycan qadınının mədəni və intellektual potensialından xəbər verir.

Beynəlxalq Qadınlar Günü

Hər il 8 mart tarixində qeyd olunan Beynəlxalq Qadınlar Günü olaraq da tanınan qadınların iqtisadi, ictimai və siyasi mübarizəsini, habelə ümumi olaraq qadınlara qarşı nəzakət, sevgi və məhəbbəti tərənnümünü ənənəvi hala gətirmiş bayram. 8 mart postsovet respublikalarında, habelə Anqola, Burkina-Faso, Qvineya-Bisau, Kamboca, Çin, Konqo, Laos, Makedoniya Respublikası, Monqolustan, Nepal, Şimali Koreya və Uqandada qeyri-iş günü sayılır. BMT də 8 -martı beynəlxalq qadınlar günü kimi tanıyıb.

Tarixi

Qadınların kişilərlə bərabər hüquqlu olmaq uğrunda apardığı mübarizənin təmsili başlanğıcı olaraq, 8 mart 1857-ci ildə ABŞ-nin Nyu-York şəhərində geyim sektorunda çalışan yüzlərlə qadının aşağı maaşa, uzun çalışma saatlarına, eyni zamanda pis iş şəraitinə etiraz olaraq tətil etməsi qəbul edilir. Lakin polis aksiyanın uzun sürməsinə izin verməyərək nümayişi dağıtdı.

8 mart 1908-ci ildə Nyu York Sosial-Demokrat Qadın Təşkilatının çağırışilə 15 min qadın, daha qısa çalışma saatı, kişilərlə bərabər əmək haqqı və səsvermə hüququ üçün nümayiş keçirdi. Nümayişdə ayrıca ilk dəfə olaraq dekret icazəsi istəyən qadınların şüarı "Çörək və Gül" idi. Çörək həyat eşqini, qarın toxluğunu, gül isə daha rifah həyat tərzini ifadə edirdi.

İlk Qadınlar Günü mərasimi 1909-cu ilin 28 fevralında Nyu Yorkda baş tutmuşdur; bu Amerika Sosialist partiyası tərəfindən Beynəlxalq Qadın Tikiş İşçiləri Birliyinin 1908-ci ilki tətilinin yada salınması münasibətilə təşkil olunmuşdu.

1909-cu ildə isə Avropadakı qadınlar, fevral ayının son bazar gününü, fevralın 28-ni ilk qadın günü olaraq keçirdi.

1910-cu ildə 1857-ci il hadisələrdən 52 il sonra Danimarkanın Kopenhagen şəhərində keçirilən Qadın Sosialist İnternasyonalının qurultayında 1857-ci ilin 8 martında Nyu-Yorkda başlayan mübarizənin, qadın hüquqlarının genişləndirilməsi və qadın həmrəyliyinin simvolu olaraq Klara Setkin adlı bir alman sosialist qadını, Amerikada 8 martda yandırılaraq öldürülən 129 qadın işçinin xatirəsinə hər il 8 mart gününü Dünya Qadınlar Günü olmasını təklif etdi və bu təklifi qəbul edildi.

Bəzi tarixçilərin fikrincə, 8 martın təqvimə qırmızı rəqəmlərlə düşməsinin səbəblərini bilmək üçün 1910-cu ildə həmin günün bayram kimi qeyd olunması təşəbbüsünü irəli sürmüş Klara Setkinin şəxsiyyətinə, xüsusən onun milli mənsubiyyətinə nəzər salmaq lazımdır. Yəhudi Klara Setkinin təklif etdiyi 8 Mart günü 1910-cu ildə yəhudilərin Purim bayramı ilə üst-üstə düşürdü (yəhudi təqvimində Purim bayramının yeri dəyişir). Purim bayramı isə yəhudilərdə qadın ağlı, eyni zamanda bu millətin özünümüdafiə haqlarını simvolizə edir.

Bibliya rəvayətlərinə görə, miladdan əvvəl 480-ci ildə yəhudilərin Babil əsarətindən qurtulmasından sonra arzu edənlərin Qüdsə qayıtmasına icazə verilib. Amma "özünü tutmuş" yəhudilər bunun üçün tələsmirdilər. Bu vəziyyət iranlıları getdikcə daha çox narahat etməyə başlayırdı. İran ordusunun baş komandanı Aman İran şahı Kserksin yanına gedərək vəziyyəti ona danışır. Kserks isə bütün yəhudiləri qırmağı qərara alır. Kserksin arvadı, özünün yəhudi olduğunu hamıdan gizli saxlayan Esfir ərinin qəbul etdiyi qərarı dəyişdirməyə nail olur. Nəticədə İran şahının çıxardığı qərarda yəhudilərin deyil, onların düşmənlərinin öldürülməsi nəzərdə tutulur. Tezliklə yəhudilər antisemit iranlıları darmadağın edərək Amanın qulağını kəsirlər. Yeri gəlmişkən, indiyədək yəhudilər Purim bayramında Amanın qulağını rəmzləşdirən üçbucaq şirniyyat növü bişirirlər. Çox güman ki, Klara Setkinin təklifinin əsasında şəxsi maraqlar durub. İnqilabi hərəkatın da öz bayramlarının olması istəyi aydındır. Məsləkdaşlarını həvəsləndirmək, fəhlə kişilərlə yanaşı, qadınları da mübarizəyə qatmaq ağıllı və effektli ideya idi.

1911-ci ildə Kophenagen qərarından sonra ilk dəfə olaraq 19 martda Avstriya, Danimarka, Almaniya və İsveçrə də bu bayram qeyd edilmişdir.



1914-cü ildə Rusiyada Beynəlxalq Qadınlar Günü martın 8-də baş tutdu, böyük ehtimalla ona görə ki, həmin gün bazar günü idi və beləliklə bu bütün ölkələrdə həmişə martın 8-i qeyd olunur. 1914-cü ildə həmin Günün mərasimi qadınların 1918-ci ilə kimi qazana bilmədikləri seçki hüququna həsr olundu.[5] 1914-cü ilin 8 martında Londonda Boudan Trafalqar meydanına doğru qadınların seçki hüququna dəstək yürüşü oldu. Silvia Pankurst (Sylvia Pankhurst) Çaring Kross stansiyasının qarşısında, nitq söyləməkçün Trafalqar meydanına gedərkən həbs olunmuşdu. 1917-ci il, fevralın son bazar günü (Yeni Stillə martın 8-nə düşür) Sankt-Peterbuqda Qadınlar Gününün qutlama nümayişləri Fevral İnqilabının əsasını qoydu. Həmin gün qadınlar Sankt-Peterburqda "Çörək və Sülh" üçün, Birinci Dünya müharibəsinin, Rusiyadakı ərzaq qıtlığının və Çarizmin son bulmasını tələb edərək tətilə çıxdılar. Lev Trotski yazırdı, "23 fevral (8 mart) Beynəlxalq Qadınlar günü idi və üfüqdə yeni mitinqlər və aksyalar görünürdü. Amma biz təsəvvür etmirdik ki, bu Qadınlar Günü inqilabın inaqurasiyası ola bilər. İnqilabi aksiyalar öncədən görünürdü amma tarixsiz şəkildə. Lakin səhər, əks göstərişlərə baxmayaraq tekstil işçiləri bir neçə fabrikdə işi tərk elədilər və tətilə dəstək verilməsini xahiş etməkçün öz nümayəndələrini göndərdilər bu kütləvi tətilə apardı hamı küçəyə axışdı".

Oktyabr inqilabından sonra Bolşevik Aleksandra Kollontay və Vladimir Lenin bunu SSRİ-də rəsmi bayram elan etdilər amma 1965-ci ilə kimi iş günü idi. 8 may 1965-ci il fərmanıyla SSRİ Ali Sovetinin Rəyasət Heyəti SSRİ-də Beynəlxalq Qadınlar Gününü qeyri-iş günü elan etdi, "kommunist quruluşunda Sovet qadınının ləyaqətinin xatırlanmasıyla, Böyük Vətən Müharibəsi zamanı vətənin müdafiəsilə, onların ön və arxa cəbhədəki qəhramanlıq və fədakarlıqlarıyla və həmçinin insanlar arasındakı dostluğun möhkəmləndirilməsinə qadınların böyük töhvəsini vurğulamaqla və sülh uğrunda mübarizəylə. Amma yenə də, qadınlar günü başqa bayramlar kimi keçirilməlidir".

1917-ci ildə Çar Rusiyasında qadınlar, pis həyat tərzinə qarşı "çörək və sülh" adlı nümayiş keçirdilər. 8 mart günü olan bu tətil, daha sonra digər Avropa ölkələrində də qeyd edilməyə başlandı.

Ardı Səh. 11

ARXİVİ

Əvvəli səh. 10

1975-ci il dünya qadınları üçün xüsusi əhəmiyyət daşıyır. Məhz bu il, Beynəlxalq Qadınlar ili olaraq tarixə düşdü. Həmin ilin beynəlxalq qadın ili elan edilməsindən sonra BMT-də 1975-ci ilin 8 martını ilk dəfə Beynəlxalq Qadınlar Günü olaraq keçirildi. İki il sonra 1977-ci ildə isə nəhayət Birləşmiş Millətlər Təşkilatının Ümumi Qurultayında 8 mart, qadın hüquqları və beynəlxalq sülh günü olaraq qəbul edildi.

Beynəlxalq Qadınlar Günü eyni zamanda qadın hüquqlarının genişləndirilməsinin və bugünkü qadının daha azad olmasının tarixi səbəblərinin xatırlanması üçün də xüsusi gündür.

Bütün bunları nəzərə alaraq, demək olar ki, 8 mart, sadəcə, qadınlar günü yox, qadın-inqilabçılar günüdür.

Qərbdə Beynəlxalq Qadınlar Günü ilk dəfə məşhur bir hadisə kimi 1977-ci ildən sonra, Birləşmiş Millətlərin Baş Assambleyası üzv ölkələrinin 8 martın BMT-nin dünya sülhü və qadın azadlıqları Günü kimi qəbul olunmasına dəvət etməsindən sonra müşahidə olunmuşdur.

Hədiyyələrin məzmunu maddi olaraq müxtəlif ola bilər

Beynəlxalq Qadınlar Günü Azərbaycanda

8 Mart Sovet İttifaqından qalma bayram olsa da, Azərbaycanda indiyədək qeyd edilir. Məhz qadınların kütləvi şəkildə savadlanması, müəyyən hüquqlara malik olması həmin dövrə təsadüf edir. Bəlkə də buna görədir ki, 8 Mart digər sosializm mənşəli bayramlardan fərqli olaraq, artıq müstəqillik qazanmış keçmiş SSRİ respublikalarının təqvimindən bu günə qədər silinməyib.

1998-ci ildə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur, BMT-nin qadın məsələləri üzrə komissiyasının tam hüquqlu üzvüdür. 1995-ci ildə isə Azərbaycan rəsmi şəkildə qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulub.

Hər il bayram günü ərəfəsində dövlət başçısı 8 mart - Beynəlxalq Qadınlar günü münasibətilə Azərbaycan qadınlarına təbrik ünvanlayır, Azərbaycan qadınlarının bir qrupuna fəxri adlar verir, digər bir qrupu isə orden və ya medallarla təltif edir.

Analar günü

Amma dünyanın bir çox ölkələrində müxtəlif vaxtlarda qeyd olunan Analar günü bayramı var. Avstraliya, Belçika, Danimarka, İtaliya, Türkiyə, Finlandiya, ABŞ və Yaponiyada Analar günü mayın ikinci bazar gününə düşür. Hindistanda oktyabrın əvvəllərində on əli olan Durqa adlı ana-ilahənin şərəfinə on günlük Durqa Puca bayramı keçirilir. İspaniya və Portuqaliyada anaları dekabrın 8-də, Fransa və İsveçdə isə mayın sonuncu bazar günündə təbrik edirlər. Amma analar günü ən orijinal şəkildə Serbiyada qeyd edilir. Miladdan 2 həftə əvvəl qeyd olunan həmin bayram günündə sübh tezdən uşaqlar analarının yatağına yaxınlaşıb onu çarpayıya bağlayırlar. Ana əsirlikdən qurtulmaq üçün bir gün əvvəldən balışının altında hazır qoyduğu hədiyyələri balaca "quldurlar"a verməli olur. 8 Martın beynəlxalq qadınlar günü elan edilməsi haqqında qərar 1910-cu ildə, sosialist qadınların Konpenhagendə keçirilən ikinci beynəlxalq konfransında qəbul edilib. Bayram ilk dəfə 1911-ci ildə ABŞ-də və bir sıra Avropa ölkələrində qeyd olunub. 8 mart 1966-cı ildə SSRİ rəhbəri Leonid Brejnevin sərəncamı ilə qeyri-iş günü və dövlət səviyyəli bayram elan edilib.

SİA araşdırma apararaq tarixçi və sosioloqun mövzu ilə bağlı fikirlərini öyrənib.

"Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış hərəkatı" şöbəsinin müdiri, t.ü.f.d. Ədalət Mustafayev: "Cəmiyyətin elə ilk dövrlərindən etibarən qadınların da kişilərlə bərabər mübarizəsi davam etmişdir. Bu baxımdan 8 mart qadınlar bayramı əmək mübarizəsinin gedişində yaranmış bir gündür. Daha sonra bu bayram kimi qeyd edilməyə başlayır. Əgər bu bayramın tarixinə nəzər salsaq görərik ki, ilk dəfə qadınlar iş şəraitinin yüngülləşdirilməsi haqqında etiraza qalxırlar. Qadınların kişilərlə bərabər hüquqlu olmaq uğrunda apardığı mübarizənin başlanğıcı 8 mart 1857-ci ildə ABŞ-nin Nyu-York şəhərində qoyulmuşdur. Orada fabrikdə çalışan yüzlərlə qadının aşağı maaşa, iş saatının çoxluğuna, eyni zamanda şəraitsizliyə etiraz olaraq tətil etməsi olur. Lakin həmin dövrdə güc strukturları aksiyanın uzun sürməsinə izin verməyərək nümayişin qarşısını alırlar. 1910-cu ildə alman sosialist qadın Klara Setkin 8 martın dünya qadınlar günü kimi qeyd edilməsinə nail olub. Klara Setkinin də bu mübarizəsi 1977-ci ildə BMT bu günü qadın günü kimi rəsmiləşdirib

8 Mart Qadınlar bayramını qeyd edərkən xalqımızın və dövlətimizin bu əlamətdar günə münasibətinə şərh vermək daha məqsədəuyğun olar. Azərbaycan tarixinə adını qızıl hərflərlə həkk etmiş igid qadınlarımız çoxdur. Bu gün torpaqlarımızı düşmən işğalından azad etmiş igid oğullarımızı böyüdüb Vətənə ərməğan etmiş analarımız qarşısında baş əyərək, vaxtilə nəsillərə örnək olan qəhrəman qadınlarımız haqqında da geniş məlumatlar paylaşmağa borcluyuq. Tomris Xatun tariximizdə ilk qadın hökmdar kimi xatırlanır. Bu gün qədim dünyanın dəmir ledisi kimi tanınan Tomris Azərbaycanın şanlı tarixinə qızıl hərflərələ adını yazdırmış və hələ qədim dövürdən qadınların heçdə geri qalmadığını bir daha göstərmiş tarixi bir şəxsiyyətdir. Həmçinin Şərqin ilk diplomatik Qadını Sara Xatunda orta əsrlərin tarixi qadın şəxsiyyətlərindəndir.

Azərbaycan Xalq Cümhuriyyəti dönəmindəki şərəfli ilklərdən biri də bütün təbəqələrdən olan qadınlara seçki hüququnun verilməsidir. Bu tarixi bir hadiə kimi yer alır. Müqayisə üçün xatırlatmaq yerinə düşərdi ki, ABŞ-da qadınlara ilk dəfə 1920-ci ildə seçmək hüququ verilib. İndi Avropanın qabaqcıl ölkələrindən sayılan Fransada qadınların səsvermə hüququ yalnız 1944-cü ildə, İsveçrədə isə 1971-ci ildə qəbul edilib.

Azərbaycan Xalq Cümhuriyyəti dönəmində bu mütərəqqi addımın atılması həmin dövrdə Şərqin ilk müstəqil respublikasının hüquqi dövlət quruculuğu yolunda əzmlə irəlilədiyinin, həm də ölkədə gender bərabərliyinin təmin olunmasının parlaq göstəricisi idi. Ulu öndər Heydər Əliyevin, hazırda isə Prezident İlham Əliyevin vurğuladıqları kimi, Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olan müasir Azərbaycan Respublikasında da müstəqillik əldə olunduqdan sonra həm hüquqi dövlət quruculuğu, həm də gender siyasəti istiqamətində uğurlu islahatlar həyata keçirilir.

Hələ 100 il əvvəl ən önəmli vətəndaş hüquqlarından birinə-seçmək və seçilmək hüququna sahib olan Azərbaycan qadınının hazırda da gender siyasətinin tələblərinə müvafiq olaraq kişilərlə hüquq bərabərliyi təmin olunub. Müasir Azərbaycan qadınıı bütün dövlət strukturlarında fəal şəkildə təmsil olunur. Azərbaycan qadınları dövlət idarəçiliyində yaxından iştirak edir və cəmiyyətin, dövlətin inkişafına öz qiymətli töhfələrini verir. Milli-mənəvi dəyərləri hər şeydən üstün tutan Azərbaycan qadınları həmişə nəcib təşəbbüslərin, xeyirxah əməllərin tərəfdarı və icraçısı kimi tanınırlar. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın simasında Azərbaycan qadınının tarixən malik olduğu ali keyfiyyətləri müşahidə etmək mümkündür.

Həmçinin uzun illərdir Heydər Əliyev Fondunun prezidenti vəzifəsini icra edən Mehriban xanım Əliyevanın fəaliyyəti millimənəvi dəyərlərin qorunmasını və intellektual inkişafın genişlənməsini əhatə edir. Heydər Əliyev Fondu təkcə Azərbaycanda deyil, eləcə də dünyada elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı ilə bağlı çox önəmli layihələr həyata keçirib və keçirməkdə davam edir. Mehriban xanım Əliyevanın rəhbərliyi altında gender problemlərinə xüsusi diqqət yetirilir, qadınlara qarşı bütün zorakılıqların qarşısının alınması istiqamətində işlər görülür. Bununla da ölkənin Birinci vitse-prezidenti əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulan gender bərabərliyinin təminatı ənənələrinin layiqli davamçısı rolunda çıxış edir.

Ölkəmizdə qadının cəmiyyətdəki yeri və rolu dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Azərbaycan qadını analıq missiyasını yerinə yetirməklə bərabər, həm də bacarıqlı siyasətçi, uğurlu iş adamı, sadiq dövlət məmuru, yüksəkixtisaslı peşəkar mütəxəssisdir. Bu cür fəal həyat mövqeyi respublikamızda uğurla həyata keçirilən gender siyasətinin mahiyyətindən, qadınlara müasir cəmiyyətin tamhüquqlu üzvləri kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.

Bu gün həm də torpaqlarımızın müdafiəsi zamanı şəhid olmuş qadınlarımızın, bütün şəhid anaları və xanımlarının, döyüşlərdə sağlamlığını itirən hərbi qulluqçuların ömürgün yoldaşlarının, Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarının bayramıdır. Bu il Azərbaycan qadını beynəlxalq qadınlar bayramını daha qürurlu qeyd edir. Çünki onun Vətən üçün sağlam ruhda böyüdüb boya-başa çatdırdığı övladları 30 illik düşmən işğalına son qoydu. 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad edildi. Bu gün biz şəhidlərimizə, qazilərimizə nə qədər borcluyuqsa, bir o qədər də onları əsl qəhrəman kimi böyüdən analara borcluyuq.

Qarşıdan isə 8 mart Beynəlxalq Qadınlar Günü gəlir. Bu gün ölkəmizdə rəsmi bayram günü kimi qeyd olunur. Hər il bayram günü ərəfəsində Azərbaycan qadınlarının bir qrupuna fəxri adlar verilir, onlar orden və medallarla təltif edilirlər. Cəmiyyətimizin baş tacı olan qadınlarımızı mən də bu bayram münasibəti ilə təbrik edir, onlara xoşbəxt həyat arzulayıram".

Sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev: "İnsanın təbiətində həm qadın, həm də kişi hədiyyə qəbul etməyi sevmək var. Ancaq bu məsələdə qadınlar bir addım öndədir. Qadınlar, xüsusən əks cinsin nümayəndəsindən diqqət gözləyirlər. Kişilərin qadınlara göstərdiyi diqqət formalarından biri də hədiyyə verməkdir. Hər bir kişi istər anasına, istər bacısına, istərsə də həyat yoldaşına və qız övladlarına mütəmadi olaraq hədiyyələr almalıdır.

Hədiyələşmək, həmçinin insani və qohumluq bağlarını möhkəmləndirən bir ənənədir. Ölkəmizdə qadınlara hədiyyə vermək ən çox 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə baş verir. Bu günün bayram kimi qeyd olunmasının isə öz tarixçəsi var. İlk dəfə 1909-cu ildə ABŞ-da, sonra isə 1910-cu ildən başlayaraq beynəlxalq miqyasda qeyd olunmağa başlanıb. Lakin cəmiyyətimizin əsasən müsəlman olduğunu nəzərə alaraq, bu günün dini və mental dayanıqlı bir əsası olmadığını da qeyd etmək lazımdır.

İslamda qadınlara hədiyyə vermək bəyənilən bir əməl sayılır, amma bunun üçün xüsusi bir gün təyin olunmayıb. Əslində, kişi öz maddi imkanları daxilində, himayəsində olan qadınlara mütəmadi olaraq hədiyyə verməli, onlara qarşı diqqətini və dəyərini ifadə etməlidir. Hədiyyənin keyfiyyəti, forması və maddi dəyəri qadın üçün əsas məsələ olmamalıdır. Hədiyyənin ən önəmli tərəfi, onun şəxsi diqqət və sevgini göstərməsi, qadına verilən dəyərdir.

Hədiyyələrin məzmunu maddi olaraq müxtəlif ola bilər. Kimi həyat yoldaşına maşın, kimisi isə sadə bir ətir və ya geyim hədiyyə edə bilər. Buradakı əsas məqam, hədiyyənin qiymətindən daha çox, qarşı tərəfə verilən dəyərdir. Hədiyyələr maddi dəyərdən daha çox emosional və mənəvi qiymətə sahib olmalıdır. Nəticə olaraq, hədiyyə vermək yalnız material bir jestdən ibarət deyil, həm də münasibətlərin, sevginin, hörmətin və diqqətin bir ifadəsidir. Hədiyyələr, insani əlaqələri möhkəmləndirir, qarşılıqlı anlayışı artırır və insanların bir-birlərinə olan dəyərlərini gücləndirir".

Söylü Ağazadə

8 Mart kiçik rəssamların gözü ilə

Ona zərif deyirlər, zəif deyirlər, gücsüz, incə deyirlər, amma gücünün fərqindədirlər əslində. Boşuna deməyiblər, əgər bir qadın sevdiyini, sevgisinin böyüklüyə qədər möhkəm qucaqlaya bilsə, bütün sümükləri sınar. Zərif dediyimiz qadından dünya boyda sevgi çıxarmı? Çıxar. Axı bəşəriyyət onun bətnindən törəyib, sevgi onun içindən daşıb cahana. Onlar göründükləri kimi deyillər əslində, daha böyükdürlər, daha güclüdürlər.

Beynəlxalq Qadınlar Gününə böyük həvəslə hazırlaşanlar arasında balaca rəssamlar da vardı. Hərəsi öz anası üçün əlindən gələni etməyə çalışırdı. "M.A. ART" Rəssamlıq Studiyasının balaca yetirmələri müəllimləri Münəvvər Allahquliyevanın dəstəyi ilə analarına olan sevgilərini kətana köçürmüşdülər və hərəsi öz tablosunu götürüb dahi Azərbaycan rəssamı, Azərbaycan karikatura sənətinin banisi, Azərbaycan SSR xalq artisti, Əmək Qəhrəmanı Əzim Əzimzadənin ev muzeyində təşkil olunmuş sərgiyə gəlmişdilər.

Sərgini açıq elan edən muzeyin direktoru İradə Əzimzadə uşaqların əl işlərinin gözəlliyinə valeh olduğunu bildirdi. O söylədi ki, körpə qonaqlarının gəlişinə həmişə sevinir, muzeydə onların sərgisinin təşkil olunmasından olduqca məmnundur. "M.A. ART" Rəssamlıq Studiyasının rəhbəri Münəvvər Allahquliyeva isə balaca rəssamların bu sərgiyə qısa müddətdə və çətin şəraitdə hazırlaşdığını dedi:

"Uşaqlar çətin hava şəraitində gəlirdilər dərsə, fevral ayında bildiyiniz kimi havalar soyuq, şaxtalı keçirdi. Mən valideynlərə təşəkkür edirəm ki, çətin hava şəraitində uşaqlarını məşğələlərdən saxlamadılar, sərgiyə hazırlaşmaq üçün bütün lazımı dəstəyi göstərdilər. Balaca rəssamlarımı da əzmlərinə, həvəslərinə görə təbrik edirəm".

Daha sonra uşaqların çəkdiyi rəsm əsərlərinə baxış keçirildi. Qonaqlar və balaca rəssamların valideynləri hər tabloya maraqla yanaşdılar, uşaqlar öz əsərləri haqqında qonaqlara, sərgi iştirakçılarına məlumat verdilər. Sonda xatirə fotosu çəkildi.

REPORTAJ

"İş təcrübəsizliyi gənclərin iş tapmasını çətinləşdirir"

"İş təcrübəsizliyi gənclərin iş tapmasını çətinləşdirir". Bunu SİA-ya açıqlamasında iqtisadçı-ekspert Xalid Kərimli deyib. Onun sözlərinə görə, işsizliklə bağlı statistikalara baxanda həm məşğulluq, həm də işsizlik statistikalarına nəzər yetirildikdə, ölkədə işsizlik səviyyəsinin stabil olaraq aşağı olduğu görünür: "Yəni, 15% arasında bir işsizlik statistikasıdır və bu, uzun illər ərzində saxlanılır. İşsizlərin strukturuna baxanda görürük ki, qeydiyyatda durmayan və çoxlu sayda işsizlər də ola bilər. Amma ümumi şəkildə ölkə statistikasına baxanda, rəsmi statistika vəziyyətin o qədər də pis olmadığını göstərir.

Digər tərəfdən, kənd təsərrüfatında məşğulluq yalnız o şəxslərdə hesab olunur ki, şəxsi istifadəsində torpaq var, o deməkdir ki, işsiz hesab olunmur. Kənddə demək olar ki, hər kəsin şəxsi istifadəsində torpaq var, amma bu torpaq yalnız o halda faydalıdır ki, sənə pul gətirir. Bu baxımdan real işsizləri müəyyənləşdirmək bu statistika ilə çətindir. Amma ümumi şəkildə ölkənin vəziyyətinə baxanda, qeyd etdiyim kimi, rəsmi qeydiyyatda duran işsizlərin sayı o qədər də çox deyil və artmır. Problemin bir tərəfi də ondan ibarətdir ki, hətta mövcud işləyənlər arasında da iş yerindən və şəraitindən məmnun olmayan çoxlu sayda insanlar mövcuddur. Onlar işçi sayılırlar, amma faktiki olaraq iş axtarırlar. Bunun iqtisadiyyatda öz terminləri var.

Gənclərin rastlaşdığı ən böyük problem təcrübəsizlikdir. Azərbaycanda bazar işverənin xeyrinə olduğuna görə, onlar həmişə çalışırlar ki, öz büdcələri çərçivəsində ən yaxşı işçini götürsünlər. Təbii ki, gənclərin də iş təcrübəsinin aşağı olması, zamanla onların bu cür müsabiqələrdə uduzmasına və ya iş tapa bilməməsinə gətirib çıxarır. Yəni, təcrübəsiz işçilərin iş tapması çətindir. Bundan başqa, xüsusilə orta aylıq əməkhaqqısına baxanda görürsən ki, əməkhaqqı bir sıra sahələrdə, məsələn, neft sənayesi, maliyyə sektoru və informasiya, nəqliyyat, rabitə sahələrində orta əməkhaqqı daha yüksəkdir. Amma digər sektorlarda orta əməkhaqqı daha aşağıdır və bu da gənclərin iş tapdıqda daha aşağı əməkhaqqılı işlərə yönəlməsinə səbəb olur.

Regiondakı gənclər Bakıda yaşayan gənclərə nisbətən daha çətin vəziyyətdədir. Regiondakı gənclərin iş tapma imkanı Bakıda yaşayan gənclərdən daha pisdir. Əsas problem ondan ibarətdir ki, qeyri-neft sektoru zəif inkişaf edir və qeyri-neft sektorunda iş yerləri təklif edərkən, bu sahə zəif inkişaf etdiyinə görə bazara yüksək əməkhaqqılı işçilər təklif edə bilmirlər".

Zeynəb Cəfərli

Pul yığımı başlayıb

MƏTANƏT

Bir neçə gündür, ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin valideynlərinin sosial şəbəkələrdə fəaliyyət göstərən qrupları arasında sövdələşmədən sonra artıq yeni pul yığımına başlanıb. Səbəb qarşıdan gələn 8 Mart Beynəlxalq Qadınlar Günüdür ki, ənənəvi olaraq məktəblərdə çalışan müəllimlərə həmin gün hökmən hədiyyələr təqdim olunmalıdır. Bu, artıq illərdir ki, ölkəmizin ümumtəhsil məktəblərində hökm sürür. Nəinki 8 martda, müəllimlər günündə, ibtidai təhsilin sonunda və son zəng zamanı müəllimlərə hədiyyələr təqdim olunur. Həm də elə-belə hədiyyələr yox, qiymətli, dəyərli hədiyyələr.

Elə 8 martın yaxınlaşması da yenidən bu ənənəni gündəmə gətirib. Hazırda şıdırğı pulyığma kampaniyasına başlanıb. Pulu yığıb müəllimlərə nə alacaqlar, nə verəcəklər, bunu valideynlər bilir. Həm də mətbuatdan da göründüyü kimi, elə müəllimlər var ki, elə-belə hədiyyə ilə razılaşmır. Elələri də var ki, bir dəstə gül və ya bir kitab onun üçün ən böyük hədiyyədir.

Pul yığımından, hədiyyədən söz düşmüşkən, bəzən müəllimləri qınayırıq ki, hədiyyə istəyirlər. Və yaxud da onlara hökmən hədiyyə verməli olduğumuzu borc hesab edirik. Lakin dərindən və məntiqlə düşünəndə müəllimləri bu cür özümüz öyrətmişik. Biz hədiyyə verməsəydik, onlar ala bilərdimi? Vaxtilə müəllimlərə hədiyyə almışıq, vermişik, onları da pis öyrətmişik, özümüzü də pis günə qoymuşuq. Müəllim adını elə özümüz ləkələmişik. İndi nə qədər ediriksə, vəziyyəti dəyişdirə bilmirik. Özümüzü pis vəziyyətə ona görə qoymuşuq ki, sinifdə birinin maddi imkanı yaxşı olanda o birininki heç də belə olmur. Valideyn məcbur olur ki, haradan tapır, tapsın, lakin övladı sinif uşaqlarından seçilməsin. Beləliklə, vəziyyət heç də yaxşı olmur. Məcbur qalır borc alır, sonra da bunu qaytarmaq barədə düşünür.

Axı bu nə qaydadır qoymuşuq məktəblərə? Müəllim dərsini deyir, dövlət də ona əmək haqqı verir. Biz müəllimə nə üçün hədiyyə verib onu öyrəncəli etmişik ki, bax, bu gün də verməyə bilmirik. Verməyəndə bəziləri buna çox böyük etiraz edir. Verə bilməyəndə özümüz də narahat oluruq.

Lakin hər şeyin bir yolu olduğu kimi, bu hədiyyə məsələsinin də bir yolu var. Bunu Təhsil Nazirliyi istədiyi an həll edə bilər. Məktəblərdə elə bir qayda-qanun tətbiq edər ki, gəl görüm, bir müəllim hədiyyə ala və yaxud bir valideyn müəllimə kiçik bir hədiyyə verə bilərmi? Deməli, hər şey özümüzdən asılıdır. Biz istəsək, nail ola bilərik. Görünən isə odur ki, hələlik nə üçünsə istəmirik.

Nə qədər ki, Təhsil Nazirliyi bu məsələnin ya öhdəsindən gələ bilmir, ya da gəlmək istəmir, biz valideynlər öhdəsindən necə var, elə gələ bilərik. Bunun üçün elə həmin sinif-valideyn qruplarında sözü bir yerə qoyuruq ki, bu dərs ilindən etibarən heç bir müəllimə hədiyyə alınmayacaq. Belə olan təqdirdə görək sizin övladınızı məktəbdənmi qovacaq, sinifdənmi çıxaracaqlar? Edin, görəcəksiniz ki, xeyri var. Axı siz etmək istəmirsiniz. Aranızda elə valideyn var ki, imkanı yaxşıdır, pul xərcləməyə yer axtarır. Bax belə pulu başından daşanlardır valideynlə müəllim arasında konflikt yaradan. Bələlərinə qarşı da qrup şəklində mübarizə aparmaq, onu yaxşıca yerində oturtmaq olar. Lakin etmirsiniz, əziz valideynlər. Bizdəki bu bəhsəbəs məsələsi var, hələ çox boğazımızdan yapışıb sürüyəcək.

Düşünürəm ki, bu barədə əməlli-başlı fikirləşmək lazımdır. Axı nə qədər hədiyyə almaq olar. Bir təqvimə nəzər salın, görün, ilin neçə gününü siz bayram edib müəllimlərə hədiyyə alırsınız. Vallah, düz etmişiniz. Elə müəllimlər də, siz valideynlər də.

Yığışdıraq bu hədiyyə məsələsini. Hər il neçə müəllim bu məsələyə görə işdən kənarlaşdırılır, bilirsiniz də. Heç olmasa, bunu nəzərə alın, camaata bais olmayın. Öz büdcənizə də ziyanı ziyan ardınca vurmayın. Bir dəfə anlayın ki, müəllim dərsinin deyir, maaşını alır. Onu pis öyrətməyin. Öyrətməyin ki, sabah əziyyətini nə o, nə də özünüz çəkin.

“Bizim cəmiyyətdə Zelenskiyə kor-koranə aşiqlik var”

Ağ Partiyanın sədri Tural Abbaslının SİA-ya müsahibəsini təqdim edirik:

- Bu yaxınlarda ABŞ-də Tramp və Ukrayna prezidenti arasında görüş keçirildi. Bu görüş dünya ictimaiyyəti tərəfindən birmənalı qarşılanmadı. Hətta müəyyən reaksiyalar baş verdi. Bu görüşün özünəməxsusluğu nədədir? Nəyə hesablanmışdı və nə ilə nəticələndi?

- Niyyət nə idisə, o da oldu. Tramp seçilməmişdən əvvəl də Ukraynanın Amerika üçün zərərli layihə olduğunu, Trampın təbirincə desək, ”ağlını itirmiş qocanın” Amerikanı çəkdiyi savaş kimi ona baxır. Zelenskini dəvət edib, Amerikanın indiyə qədər oraya xərclədiyi pulları geri almaq və Rusiya ilə reallığı nəzərə alaraq atəşkəsi təmin etmək idi. Amma görünür ki, burada Zelenski hələ o sülhə hazır deyildi. Yaxud da, Zelenskiyə icazə vermirlər sülhə imza atmağa. Təbii ehtiyatların Amerikaya verilməsi ilə bağlı qərar var idi. Belə görüşlərdə sənədlər əvvəlcədən hazırlanır. İmzalanma mərasimi olur. Amma o mərasim də olmadı. Görünən odur ki, Zelenskinin də görüşdən əvvəl bəzi dairələrlə məsləhətləşmələri olub. Müzakirə gedir ki, provokasiyanı kim etdi? Hərə bir qiymət verə bilər. Mənə elə gəlir ki, Zelenski daha çox provokasiya etdi. Çünki dünyanın bir nömrəli ölkəsinin prezidentinə, xüsusilə də, eqoist bir prezidentə siyasət öyrətməyə çalışsan, təbii ki, belə olacaq. Dolayısı ilə Amerika Ukraynaya bu layihənin bitdiyini başa salmağa çalışır. Halbuki biz Ukraynanın müharibəyə girməsinin yanlış siyasət olduğunu əvvəldən de-

yirdik. Ukrayna bilməli idi ki, onun qonşusu kimdir. Dövlətin Qərbə və Şərqə inteqrasiya etməsinə görə dövləti müharibəyə salıb parçalamazlar. Bizim cəmiyyətdə Zelenskiyə kor-koranə aşiqlik var, bu əslində Putinə nifrətdir. Soyuqqanlı düşünsək, gözlənilən nədirsə, o da olacaq.

- Müqayisəli şəkildə göstərirlər ki, Amerika səfərlərində Zelenski necə qarşılanır, dünyada necə qarşılanır. Ola bilər ki, dünya artıq Amerikaya qarşı birləşsin?

- Amerikanın özü dünyadır. 200-ə yaxın dövlət var, hamısının bayrağı, konstitusiyası, məclisi var. Bu bizim gördüyümüz dünyadır, əslində dünyanın 2-3 sahibi var. Bunlar, Amerika, Rusiya, Çindir. Dünya Amerikaya qarşı birləşə bilməz, Amerika dünyaya qarşı çıxa bilər. Məsələ çox sadədir. Avropanın Ukraynaya verdiyi kredit belə Amerika üzərindən gedir. Bu baxımdan Amerikanı necə bu prosesdən çıxarmaq olar? Bu mümkün deyil. Bir nüans deyim. Deyəsən, Polşanın baş naziri demişdi. Deyib ki, qəribədir, 500 milyonluq Avropa olaraq 300 milyonluq Amerikaya yalvarırıq ki, bizi 140 milyonluq Rusiyaya qarşı qorusun. Reallıq budur. Avropanın ən böyük üç dövləti Fransa, Britaniya, Almaniyadır. Dünya artıq yeni düzənə gedir. Britaniyanın necə bir siyasət yürütdüyünü müəyyən etmək də çətindir. İkinci dünya müharibəsindən sonrakı proseslər bitib. BMT də hələ formal olaraq qalıb. Yeni düzəndə Britaniya, Amerika öz yerlərini müəyyən edirlər. Ona görə də uyğun addımlar atırlar. Britaniya bu məsələdə deyir ki, Ukraynaya dəstək verməyə hazırdır, amma Amerika iştirak etməlidir. Almaniya və Yaponiyanın heç özlərinin hücum silahı saxlamaq hüquqları yoxdur. Onların ikinci dünya müharibəsindən sonra müdafiə silahından başqa silah saxlamaq hüququ yoxdur. Qaldı Fransa ki, o da sonuncu dəfə Liviyaya qarşı əməliyyatda iştirak edib. Üç gün sonra da Amerikadan kömək istədi. Yəni Avropanın müharibə təcrübəsi yoxdur. Rusiya ilə silah istehsalında yarışa biləcək yeganə dövlət Amerikadır. Avropa bütün silah ehtiyatlarını Ukraynaya verib. Ola bilsin ki, Rusiyanın 10 tankı gündə vurulur, amma Rusiya tankı istehsal edir.

- Rusiya-Ukrayna müharibəsi başladığı andan Rusiyaya qarşı sanksiyalar tətbiq olunmağa başladı. Niyə bu sanksiyalar Rusiyanı çökdürə bilmədi?

- Əvvəl iki qütb var idi: SSRİ və Amerika. Sonra SSRİ çökdü. Çoxları dedi ki, SSRİ-ni Amerika çökdürdü. Amma belə deyil. Amerika 15 dövlətin SSRİ-nin tərkibindən çıxmasını istəmirdi. Amerika zəifləmiş, amma bütöv qalmış SSRİ istəyirdi. Qorbaçovun islahatları onun qorunması üçün idi, dağılması üçün yox. 20 Yanvarı Amerika dəstəkləyib. Bəziləri elə bilir ki, bütün dünya bizim 20 Yanvara ağlayır. Qərb və Amerika mətbuatına baxsınlar, orada yazılıb ki, Rusiya qoşunları düz etdi. İslamçı radikal qruplaşmalar var idi, onları yatırtdılar. Məsələyə ayıq-sayıq baxmaq lazımdır. Sanksiyalar necə təsir etsin? Məsələn, Rusiya Ayfon satmadı. Çinin bu markadan da yaxşı texnologiyası var, o satacaq. Amerika satmasa, Hindistan satacaq. Bu məsələlərdə çoxqütblülük var. Ermənistana silah lazım olanda gedib Hindistandan, Fransadan alırdı. Manevr imkanları çoxdur. Ermənistanla Rusiyanın müharibə başlayandan sonrakı ticari dövriyyəsi 10 dəfə artdı. Ermənistanla Rusiya arasında 20 milyard dollarlıq nə ola bilər? Rusiyaya təqdim olunan sanksiya malları Ermənistan üzərindən Rusiyaya gedirdi. Bəzən Makron əsəbləşib deyir ki, Azərbaycan Rus qazı satır. Artıq iqtisadi sanksiyalar əvvəlki təsir imkanlarına sahib deyil.

- "Qonşunun çətirinin altında qalan torpaqsız qalar" məsələsi var. Zelenski Ərdoğanla görüşdü və Ərdoğanın çətiri altında özünü müdafiə olunan hiss etdi. Ola bilər ki, Amerika artıq bu məsələlərdə Türkiyə ilə hesablaşsın?

- 60-70 minlik ordudan söhbət gedir. Düzdür, Tramp Ərdoğana simpatiyasını bildirib, Suriyada işləri olmadığını deyib. Bu dəqiqə Türkiyənin prioritet məsələsi Amerikanın Suriya məsələsində razılaşmasıdır. Sonra Qəzza məsələsi Türkiyə üçün çox həssasdır. Türkiyəyə görə Qəzza 10 Ukraynadan daha önəmlidir. Çünki seçkiyə təsir edir. Sonuncu bələdiyyə seçkilərində ”Sən niyə İsraillə ticarət edirsən?” cümləsi Ərdoğanın nə qədər səs itirməsinə səbəb oldu. Ərdoğan çox gözəl bilir ki, artıq proseslər bitib, Zelenskinin Türkiyəyə gəlməsində həlledici məqam yoxdur. Ona görə qəbul edir ki, Türkiyə Amerika və Rusiyaya mesajlar verir ki, Türkiyənin sərhədlərində onun maraqlarını nəzərə alsınlar, Türkiyə də Ukrayna məsələsində çox müdaxilə etməz. Zelenskinin şəxsi təhlükəsizliyinə zəmanət vermək şərti ilə çox müdaxilə etməz. Krımda da edə bilər. Bilirsiniz ki, Krım əvvəl Osmanlının olub. Krıma dünyada iki dövlət haqq qoya bilir. Biri Rusiya, digəri isə Türkiyədir. Bizim cəmiyyətdə informasiya qıtlığı var. Krımı Ukraynaya Xruşov verib. 60-cı illərə qədər SSRİ-nin tərkibində idi. O zaman Xruşovun özünün də ukraynalı olduğunu da nəzərə almaq olar. Türkiyənin də müdaxilə imkanları var. Razıyam ki, indiki məqamda Türkiyənin prosesdə marağı yoxdur. Çünki oyunçular Amerika, Rusiya, Ukrayna və Avropadır. Düşünülmüş şəkildə İstanbul sammitindən sonra Türkiyə kənarlaşdırıldı. Amerika, Avropa, Rusiya istəyirdi ki, Türkiyə bu proseslərdə olmasın və bunu bacardılar. Türkiyə emosional idarə olunan dövlət deyil ki, Zelenskinin bir səfəri ilə vəziyyət dəyişsin. Hər halda Türkiyə də məqamdan istifadə edərək öz siyasi maraqlarını təmin etməyə çalışar.

- Barışıq müqaviləsi və sülh prosesi nələrdir?

- İnsanlar sülh və atəşkəsi qarışdırmasınlar. Atəşkəs odur ki, atəş dayanır. Məsələn, bizdə 30 il idi ki, Ermənistanla atəşkəs idi. İndi biz torpaqlarımızı tam da olmasa azad etmişik. Mənim fikrimcə, 18-ci ilin xəritəsini iddia qoymalıyıq. Heç kim gözləməsin ki, sülh olacaq. Atəşkəs olacaq, Rusiya tutduğu ərazilərdə qalacaq, Ukrayna da qalan ərazilərdə. Xalqımız deyir ki, Ukrayna qəhrəmancasına vuruşub. Qəhrəman odur ki, dövlətini qoruya bilir, savaşa salmır. Ölən insanları kim qaytaracaq? 10 milyon ukraynalı Avropaya gedib. Onlardan neçəsi qayıdacaq? Ukraynada Azərbaycan böyüklükdə ərazi işğal olunub. Bizim Qarabağ işğal olunmuşdu, 30 il travma ilə yaşayırdıq. Kiçik rəqəm deyil, Azərbaycan böyüklükdə ərazidən söhbət gedir. Qalibləri sırasında sadalasaq, 2022-ci ildən də əvvəlki meydan hərəkatlarından sonra birinci qazanan Amerika oldu. Ukraynanın təbii sərvətlərini əldə etdi. Eyni zamanda bütün Avropaya göstərdi ki, ondan asılıdır. Rusiyanı da 15 il geri saldı. İkinci qalib Avropadır. Çünki oraya atılacaq bombalar Ukraynaya atıldı, ölən əsgərlər ukraynalı oldu. Üçüncü qalib isə Rusiya oldu ki, ən azı Azərbaycan boyda ərazi qazandı, dünyaya öz iradəsini göstərdi. Burada bir məğlub var ki, o da Ukraynadır.

Söylü Ağazadə

Ramazan bayramında adambaşına nə qədər fitrə çıxarılması məqbuldur?

Ərəb dilində Fitr bayramı - ”Eid Fitr” deyə adlanır. ”Eid” qayıdış, ”Fitr” sözü isə fitrət kəlməsindəndir. Yəni insanın həqiqi kimliyinə, fitrətinə qayıtması deməkdir”. Bu sözləri SİA-ya açıqlamasında Neftçala şəhəri ”Sahib Əzzaman” məscidinin imamı, dini və ictimai xadim Qorxmaz Paşayev deyib. Onun sözlərinə görə, oruc insanı bir ay ərzində saxta kimliklərdən, saxta özlərdən təmizləyir. İnsan ki, bir ay ərzində oruc tutmaqla bu saxta özlərdən təmizləndi orucluğun sonun da Allah deyir ki, bunu bayram kimi qeyd elə. Çünki həqiqi fitrətimizə qayıtmışıq. Fitr bayramının mənası və fəlsəfəsi bundan ibarətdir: ”Fitrə zəkatı Yaradana şükrün bir ifadəsi və canın sədəqəsi hesab olunur. Bir ay boyunca nəfsini, gözünü və dilini sınağa çəkənlər müqəddəs ay bitmədən Ramazanın son vacib əməlini də yerinə yetirirlər. Hər bir şeyin zəkatı olduğu kimi insanın bədəninin zəkatı da orucluq qurtardıqdan sonra fitrə verməklədir.

Bu mənada, insan oruc tutub zəkat vermək iqtidarında olduğu halda fitrə zəkatı verməzsə, orucu qəbul olunmaz. İmam Sadiq (ə) buyurur ki, həqiqətən, oruc zəkat verməklə tamamlanır. Kim qəsdən zəkat verməyi tərk edərsə, oruc

tutmayan şəxs kimidir. Fitrə zəkatı verən şəxs 1 illik özünü bəlalardan sığortalamış olur. Bayram gecəsi təzə ayın əvvəli olması sübuta yetdikdən sonra adam başına 3 kq buğda, arpa, un, xurma və s. ərzaqların qiyməti hesablanaraq çıxarılır. Minimum 5-10 manat civarında müəyyən edilir. İnsan bunu bazardakı qiymətlə də tənzimləyə

bilər. Bir insanın maddi imkanı geniş ola bilərsə, müəyyən olunmuş məbləğdən artıq verə bilər. İslam şəriətində qeyd olunub ki Fitrə zəkatını verəndə yaxşı olar ki, qohum fəqirləri başqalarından qabağa salasan. Sonrakı mərhələdə fəqir qonşuları, sonra isə fəqir elm əhlinə verilsin. Amma əgər başqaları müəyyən cəhətə görə üstün olsalar, yaxşı olar ki, onlar qabağa salınsın. Həmçinin diqqət olunmalıdır ki, fitrə verilən şəxs verilən fitrəni günah yolda istifadə etməsin.

Ziya Hikmətoğlu

İran nüvə silahı əldə edərsə...

ABŞ bunu fəlakət hesab edir

ABŞ prezidenti Donald Tramp İranın nüvə silahı əldə etməsinə icazə verməyəcək. Bunu Amerika vitse-prezidenti J.D.Vens ABŞ Konqresinin divarları arasında jurnalistlərlə söhbətində deyib. "Prezident Trampın siyasəti çox aydındır, biz nüvə silahının yayılmasına, xüsusən də İranda dözə bilmərik. Bu indiki Amerika administrasiyasının siyasəti olacaq. Trampın ilk prezidentliyi dövründə də belə idi", - deyə Vens bildirib. Bloomberg daha əvvəl mənbələrə istinadən xəbər verir ki, Rusiya İranın nüvə proqramı ilə bağlı məsələlərdə Tehranla təmasda Tramp administrasiyasına kömək etməyə razılaşıb. Onlar iddia edirlər ki, Tramp fevralın 12-də telefon danışığı zamanı Rusiya prezidenti Vladimir Putinə bu cür tələbi çatdırıb. Moskva hesab edir ki, Vaşinqton və Tehran bütün problemləri danışıqlar yolu ilə həll etməlidir, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov şərhində bunu təsdiq edib.

Ər-Riyadda İran söhbəti

Rusiya prezidentinin köməkçisi Yuri Uşakov fevralın 18-də Ər-Riyadda Rusiya və ABŞ nümayəndə heyətləri arasında keçirilən danışıqlarda İran məsələsi müzakirə olunduğunu deyib. Onun sözlərinə görə, görüşdə bu mövzu ilə bağlı ayrıca danışıqların aparılması qərara alınıb. Uşakov Bloomberg nəşrini şərh edərkən deyib ki, Rusiya Amerika hakimiyyətinin sorğusuna cavab olaraq ABŞ və İran arasında nüvə sazişi üzrə danışıqlarda vasitəçi kimi çıxış etməyə razılaşıb. "Biz İran ətrafındakı vəziyyəti müzakirə etdik, bəli. Və biz bu məsələ ilə bağlı ayrıca danışıqlar aparmağa razılaşdıq. Hələlik Vaşinqtondan bunun necə və nə vaxt həyata keçiriləcəyi ilə bağlı hər hansı konkret razılaşmaya dair heç bir siqnal olmayıb", - Rusiya prezidentinin köməkçisi aydınlıq gətirib.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya prezidenti Vladimir Putin dəfələrlə deyib ki, İranın nüvə dosyesi problemi müstəsna olaraq sülh yolu ilə həll olunmalıdır. "Rusiya İranın müttəfiqi və tərəfdaşı kimi bu prosesi asanlaşdırmaq üçün mümkün olan hər şeyi etməyə hazırdır", - Kreml sözçüsü bildirib. Bloomberg-in mənbələri bildiriblər ki, bu məsələ daha sonra fevralın 18-də Ər-Riyadda Rusiya Federasiyası və ABŞ nümayəndə heyətləri tərəfindən müzakirə edilib. İran Xarici İşlər Nazirliyi Moskvanın vasitəçiliyi ilə bağlı məlumatı nə təsdiq, nə də təkzib edib. Rusiya prezidentinin mətbuat katibi bildirib ki, Vladimir Putin dəfələrlə İranın nüvə proqramı ilə bağlı məsələnin sülh yolu ilə həllinin vacibliyindən danışıb. O, "Bloomberg"in Moskvanın Vaşinqton və Tehran arasında nüvə proqramı üzrə danışıqlarda vasitəçilik etməyə razılığı barədə məlumatını belə şərh edib. "Ümumiyyətlə, Putin dəfələrlə bildirib ki, İranın nüvə dosyesi problemi yalnız sülh yolu ilə həll edilməlidir və Rusiya İranın müttəfiqi və tərəfdaşı kimi bu prosesi asanlaşdırmaq üçün mümkün olan hər şeyi etməyə hazırdır", - Dmitri Peskov jurnalistlərə bildirib.

Prezident vəzifəsinə gəldikdən sonra Donald Tramp İranla onun nüvə proqramı ilə bağlı danışıqların tərəfdarı rolunda çıxış edir. Halbuki, birinci prezidentlik dövründə ABŞ Birgə Hərtərəfli Fəaliyyət Planından çıxmışdı. O, diplomatik həllin alternativinin gücdən istifadə ola biləcəyini etiraf edib. Buna cavab olaraq Tehran Vaşinqtonla danışıqlardan imtina etdi və "maksimum təzyiqə" cavabın İranın "maksimum müqaviməti" olacağına söz verdi.

Tehran Vaşinqtona doğru getməsə...

ABŞ Rusiyadan onlarla İran arasında vasitəçilik etməsini istəyib. Bu mövzu iki ölkə prezidentləri arasında telefon danışığı və Ər-Riyadda yüksək səviyyəli görüş zamanı müzakirə olunub. Agentliyin məlumatına görə, Vaşinqton Tehranla nüvə proqramı və regional sabitliyə dair razılaşmalarda maraqlıdır. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov agentliyə bildirib ki, "Rusiya hesab edir ki, ABŞ və İran bütün problemləri danışıqlar yolu ilə həll etməlidir" və Moskva "buna nail olmaq üçün əlindən gələni etməyə hazırdır".

Rusiya prezidenti Vladimir Putinin köhnə amerikalı həmkarı Donald Tramp fevralın 12-də telefon danışığı zamanı ondan İran hakimiyyəti ilə razılığa gəlməyə kömək etməsini istəyib. Qeyd edək ki, Kremlin həmin söhbətdən sonra dərc etdiyi press-relizdə həqiqətən də prezidentlərin "İranın nüvə proqramı"nı müzakirə etdiyi bildirilib, lakin konkret hansı kontekstdə aparıldığı açıqlanmayıb. Donald Trampın "Truth Social"dakı paylaşımında da söhbət mövzularından birinin "Yaxın Şərq" olduğu bildirilsə də, təfərrüatlar verilməyib. Bu arada Bloomberg-in məlumatına görə, Rusiya nümayəndə heyətindən (Rusiya xarici işlər naziri Sergey Lavrov və prezidentin köməkçisi Yuri Uşakov) fevralın 18-də Ər-Riyadda danışıqlar zamanı amerikalı həmkarları tərəfindən İrana kömək istəndiyi iddia edilib.

Nəşrdə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun şərhi yer alıb və buradan belə nəticəyə gəlmək olar ki, Rusiya hakimiyyəti münaqişə tərəflərinə razılığa gəlməyə kömək etməyə hazırdır. "Rusiya hesab edir ki, ABŞ və İran bütün problemləri danışıqlar yolu ilə həll etməlidir" deyən Dmitri Peskov əlavə edib ki, Moskva "buna nail olmaq üçün əlindən gələni etməyə hazırdır".

Martın 4-ü axşam saatlarında Rusiya mətbuatında Rusiya hakimiyyətinin ABŞ və İran arasında vasitəçi kimi çıxış etməyə hazır olub-olmaması ilə bağlı ziddiyyətli məlumatlar yayılıb. "Zvezda" telekanalı Dmitri Peskova istinadən "bəli" deyib. Lakin sonradan ona istinadən TASS agentliyi "yox" olduğunu bildirib. "Mən dedim ki, ümumilikdə Rusiya prezidenti Vladimir Putin dəfələrlə deyib ki, İranın nüvə dosyesi problemi müstəsna olaraq sülh yolu ilə həll edilməlidir və Rusiya İranın müttəfiqi və tərəfdaşı olmaqla bu prosesi asanlaşdırmaq üçün mümkün olan hər şeyi etməyə hazırdır", - agentlik Kreml nümayəndəsinin sözlərindən sitat gətirib. Eyni zamanda, Yuri Uşakova xəbər verib ki, Ər-Riyadda İranın nüvə proqramı müzakirə olunub və tərəflər bu mövzuda ayrıca görüş keçirməyə razılaşıblar.

İstənilən halda münaqişə tərəflərini barışdırmaq asan olmayacaq. Donald Tramp Ağ Evə qayıtdıqdan sonra İran məsələsi ilə bağlı bir sıra mübahisəli addımlar və açıqlamalar verib. Digər tərəfdən Tranp İrana "maksimum təzyiq" siyasətinin tətbiqi haqqında fərman imzalayıb. Söhbət xüsusilə Tehranın neft ixracından əldə etdiyi gəliri sıfıra endirməyə yönəlmiş sərt sanksiyalardan gedir. Digər tərəfdən, Ağ Evin sahibi İranı "bombalamaq" istəmədiyini və İran tərəfi ilə yeni müqavilə bağlamaqda qərarlı olduğunu bildirib. "Mən İranın sülh şəraitində inkişaf etməsinə və çiçəklənməsinə imkan verən nüvə proqramı ilə bağlı təsdiq edilə bilən razılaşmaya üstünlük verərdim. Biz bunun üzərində dərhal işə başlamalıyıq və imzalanandan sonra böyük bir Yaxın Şərq bayramı keçirməliyik", - ABŞ prezidenti "Truth Social"da yazıb. Eyni zamanda o, İranın nüvə silahı əldə etməsinə imkan verməyəcəyini də vurğulayıb.

İran hakimiyyətinin mövqeyi də birmənalı deyil. Belə ki, fevralın əvvəlində İranın ali dini lideri Ayətullah Əli Xamenei 2018-ci ildə İranın "nüvə sazişi"ndən çıxanın və Tehrana qarşı sanksiyaları bərpa edənlərin məhz amerikalılar olduğunu xatırladaraq, ABŞ-la razılaşmanın mümkünlüyünü istisna edib. Digər tərəfdən, İran prezidenti Məsud Pezeşkian fevralın sonunda amerikalıların danışıqlar aparmaq qabiliyyətini sübut edəcəyi təqdirdə ABŞ-la danışıqların mümkünlüyünə icazə verib.

Xatırladaq ki, ABŞ-ı 2018-ci ildə İranın nüvə sazişi kimi tanınan Birgə Hərtərəfli Fəaliyyət Planından və ya JCPOA-dan çıxaran da məhz Donald Tramp olub. İran və altı vasitəçi ölkə (Rusiya, ABŞ, Çin, Böyük Britaniya, Fransa və Almaniya) arasında 2015-ci ildə bağlanıb və Tehranın nüvə proqramını məhdudlaşdırması müqabilində ona qarşı sanksiyaların ləğvini nəzərdə tuturdu. Lakin Donald Tramp bu razılaşmanın ölkəsi üçün sərfəli olmadığına qərar verib və ABŞ-ın ondan çıxdığını bəyan edib. Buna cavab olaraq İran texnoloji potensialını və yüksək zənginləşdirilmiş uran ehtiyatlarını əhəmiyyətli dərəcədə artırıb ki, bu da bəzi Qərb ekspertlərinin fikrincə, ona qısa müddətdə nüvə silahı yaratmaq imkanı verir.

Eyni zamanda, yaxın aylarda İranın nüvə proqramı ətrafında vəziyyət nəzərəçarpacaq dərəcədə pisləşə bilər. JCPOA-da qalan Qərb ölkələri (Böyük Britaniya, Fransa və Almaniya) sazişin şərtlərinə görə oktyabrın 18-dək BMT Təhlükəsizlik Şurasının İrana qarşı sanksiyalarını (yəni ABŞ-ın artıq tətbiq etdiyi kimi təkcə birtərəfli deyil, həm də 2015-ci ilə qədər qüvvədə olan beynəlxalq sanksiyalar) yenidən tətbiq etməyə imkan verəcək xüsusi mexanizmi işə salmaq imkanına malikdir. Əgər avropalılar bununla razılaşsalar, İran Nüvə Silahlarının Yayılmaması Müqaviləsindən çıxa bilər. Və sonra bütün nüvə silahının yayılmaması rejimi çökə bilər, çünki digər ölkələr İranı izləyə bilər.

Son illərdə Rusiya hakimiyyəti İranın "nüvə sazişi"nin bərpasını asanlaşdırmağa çalışır, lakin onun Qərb iştirakçıları ilə Tehran arasında kəskin münaqişə səbəbindən bu, mümkün olmayıb. Fevralın 25-də Sergey Lavrov Tehrana səfər edib və orada iranlı həmkarı Abbas Əraqçi ilə JCPOA ətrafında vəziyyəti müzakirə edib. "Biz əminik ki, diplomatiyanın resursu qalmaqdadır və onu nəzərdən qaçırmaq olmaz. Hər hansı bir təhdid və ya bir növ güclü həllin mümkünlüyü barədə göstərişlər olmadan ondan mümkün qədər səmərəli istifadə etmək lazımdır. Biz İranın deyil, qərbli həmkarlarımızın yaratdığı indiki vəziyyətdən çıxmaq üçün məqbul həll yollarını axtarmağa davam etməkdə qərarlıyıq", - deyə rusiyalı nazir həmin görüşün yekunlarına dair mətbuat konfransında bildirib. Ertəsi gün jurnalistlər Abbas Əraqçidən Sergey Lavrovun ona amerikalılardan mesaj çatdırıb-çatmadığını soruşublar və İran Xarici İşlər Nazirliyinin rəhbəri bu mesaja mənfi cavab verib.

Aİ Tehranı sürətli razılaşmaya doğru sövq edir

Rusiya İranın nüvə proqramı ətrafında vəziyyətin həllində vasitəçilik etmək üçün lazımi diplomatik və texnoloji alətlərə malikdir. Bu, xüsusən də Rusiyanın əsas vasitəçi kimi çıxış etdiyi JCPOA danışıqları çərçivəsində açıq şəkildə nümayiş etdirilir və Rusiyanın töhfəsi hərtərəfli razılığın əldə edilməsi yolunda duran konkret məsələnin həlli ilə bağlı həm konseptual yanaşmaların, həm də texniki təkliflərin hazırlanmasını əhatə edir. Bu gün Vaşinqton və Tehranda müvafiq siyasi qərarların olub-olmaması sualı açıq qalır.

Üstəlik, JCPOA-nın razılaşdırıldığı 2015-ci ildən bəri dünya siyasətində "tektonik sürüşmələr" baş verib. Problemin diplomatik həllinə alternativ kifayət qədər çətin ola bilər və milli təhlükəsizlik maraqları da daxil olmaqla, bir sıra ölkələrdə mənfi nəticələrə səbəb ola bilər.

V.VƏLİYEV

Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb

ELMİN SONU

(XII YAZI)

(əvvəli ötən saylarımızda)

"Allah bütün canlını sudan yaratdı; onların bəziləri qarın üstə gəzir; bəziləri 2 ayaq, bəziləri isə 4 ayaq üstündə gəzirlər; Allah istədiyini yaradır. Həqiqətən, Allah hər şeyə qadirdir". ("Nur" surəsi, 45-cü ayə)





Əvvəlki hissələrdə dünyamızda vacib kimyəvi maddələrin və bioloji həyatın yaranması ilə ilkin təsvirlərə toxunduq. İndi isə canlıların dünyada necə peyda olması haqda danışmaq istəyirik.

İlk baxışdan sadə görünən canlıların belə təsadüfən əmələ gələ bilməyəcək qədər mürəkkəb quruluş və sistemləri var. Buraya qədər kainatın və dünyamızın yaradılışında xüsusi hesablanmış və təyin olunmuş bir balansın möcüzəvi şəkildə saysız-hesabsız imkanlar arasından ən uyğun və ideal dəyərlərlə seçildiyini nəzərdən keçirdik. İndi isə ilkin canlıların necə yarandığına baxaq.

Bəri başdan deyək ki, artıq elmi olaraq tam aydındır ki, ən sadə canlı orqanizm belə təsadüfən əmələ gələ bilməz. Bu mövzuya işıq tutan mühüm araşdırmalardan biri də Nyu York Universitetinin kimya professoru və DNT mütəxəssisi Robert Şapironun apardığı hesablamadır. Darvinist təkamülçü alim sadə bir bakteriyada tapılan 2000 növ zülalın təsadüfən ortaya çıxma ehtimalını hesablamışdır. (Müqayisə üçün deyək ki, insan bədənində təxminən 200.000 növ zülal var.) Əldə edilən rəqəmin adı riyaziyyatda mövcud deyil. Bu ədəd 1 rəqəminə 40 min sıfırın əlavə edilməsi ilə əmələ gəlir və kainatda heç bir qarşılığı yoxdur.)

Sadə bir bakteriyada tapılan 2000 növ zülalın təsadüfən meydana gəlmə ehtimalı belə qeyri-mümkündürsə, insanlarda təxminən 200.000 zülal növü olduğunu nəzərə alsaq, belə bir ehtimalı izah etmək üçün "mümkün deyil" sözü belə kifayət etməyəcək.

Kardiff Universitetinin Tətbiqi Riyaziyyat və Astronomiya professoru Çandra Vickramasinq Şapironun hesablamalarını belə şərh edib:

"Bu rəqəm Darvini və bütün təkamül nəzəriyyəsini dəfn etmək üçün kifayətdir. Bu və ya digər planetdə heç vaxt ilkin şorba (həyatın yarana biləcəyi maddə) olmamışdır və həyatın mənşəyi təsadüfən baş verə bilməyəcəyindən, məqsədyönlü ağlın məhsulu idi". Fred Hoyle, Chandra Wickramasinghe, Evolution from Space, New York, Simon & Schuster, 1984, səh. 148.

Canlıların tikinti materialı olan zülallar o qədər mürəkkəb molekullardır ki, ən sadə növlər belə təsadüfən əmələ gələ bilməz. Məsələn, 288 amin turşusu və 12 fərqli amin turşusu növü olan orta ölçülü bir zülal molekulunda amin turşuları 10 üstü 300 fərqli şəkildə düzülə bilər. Ancaq bu ardıcıllıqlardan yalnız biri sözügedən zülalı əmələ gətirir. Qalan bütün ardıcıllıqlar heç bir faydası olmayan və hətta bəzən canlılara zərər verə bilən mənasız amin turşusu zəncirləridir. Praktikada bu ehtimalın baş verməsi qeyri-mümkündür. (Riyaziyyatda 10 üstü 50-də 1-dən az olan ehtimallar "sıfır ehtimal" sayılır.)

Üstəlik, 288 amin turşusundan ibarət bir zülal, canlıların strukturlarında olan minlərlə amin turşusundan ibarət nəhəng zülallarla müqayisədə çox sadə bir quruluşdur. Eyni ehtimal hesablamalarını bu nəhəng molekullara tətbiq etdiyimiz zaman "qeyri-mümkün" sözünün belə qeyri-kafi olduğunu görürük.

Həyatın inkişafında bir addım da irəli getsək zülalın tək başına heç nə ifadə etmədiyini görərik. Hətta indiyə qədər məlum olan ən kiçik bakteriyalardan biri olan "Mycoplasma Hominis H 39"da 600 növ zülal olduğu aşkar edilmişdir. Bu vəziyyətdə 600 fərqli zülalın hər biri üçün yuxarıdakı ehtimal hesablamalarını aparmağımız lazım gələcək.

Nə qədər müddət verilsə də, amin turşularının təsadüfən zülal əmələ gətirməsi mümkün deyil. Amerikalı geoloq Uilyam Stoks "Essentials of Earth History" (Yer tarixinin əsasları) kitabında bu həqiqəti qəbul edərək "Milyardlarla planetin səthi milyardlarla il ərzində lazımi amin turşularını ehtiva edən sulu konsentrasiyalı təbəqə ilə örtülsə belə, zülal əmələ gələ bilməzdi"-deyə etiraf edir.

Lazımi zülalın meydana gəlməsi üçün onu meydana gətirən amin turşularının müəyyən sayda, mükəmməl ardıcıllıqla və xüsusi üçölçülü dizayna uyğun birləşmələri belə kifayət etmir. Bütün bunlara əlavə olaraq, bütün bu amin turşularının solaxaylar arasından seçilməsi və aralarında bir dənə də olsun sağ əlli amin turşusunun olmaması lazımdır.

Kimyəvi cəhətdən eyni amin turşusunun 2 fərqli növü var, həm sağ əlli, həm də sol əlli. Onların arasındakı fərq üçölçülü strukturlarının əks istiqamətdə olmasıdır. Eynilə insanın sağ və sol əlləri arasındakı fərq kimi...

Hər iki qrupdan olan amin turşuları bir-biri ilə asanlıqla bağlana bilir. Ancaq araşdırmalar təəccüblü bir həqiqəti üzə çıxardı: Ən sadə orqanizmdən ən inkişaf etmiş canlılara qədər bütün canlılarda zülallar yalnız solaxay amin turşularından ibarətdir. Zülalın quruluşuna əlavə edilən cəmi bir sağ əlli amin turşusu belə, o zülalı yararsız hala gətirir. Bəzi təcrübələrdə bakteriyalara sağ əlli amin turşuları verildi, lakin bakteriyalar dərhal bu amin turşularını parçaladılar, bəzi hallarda isə bu parçalardan özlərinin istifadə edə biləcəkləri solaxay amin turşularını yenidən qurdular.

Zülalların bu xüsusiyyəti Britannica Ensiklopediyasında belə ifadə edilir:

...Yer üzündəki bütün canlı orqanizmlərdə olan, zülallar kimi kompleks polimerlərin tikinti materialları olan amin turşularının hamısı eyni tipli asimmetriyaya malikdir. Onlar demək olar ki, tamamilə solaxaydırlar. Bir növ, bu, milyonlarla dəfə atılan və hər dəfə də yalnız eyni üzünə düşən sikkəyə bənzəyir. Molekulların necə sol və ya sağ əlli ola biləcəyi tamamilə anlaşılmazdır. Bu seçim yer üzündə həyatın mənşəyi ilə ayrılmaz şəkildə bağlıdır. Fabbri Encyclopedia of Science, v. 2, count. 22, p. 519.

Son illərdə bakteriyalar üzərində aparılan müşahidələr, bu təkhüceyrəli orqanizmlərin son dərəcə "ağıllı" davrandıqlarını və ətraflarını qiymətləndirərək qərarlar qəbul etdiklərini göstərdi. Nüfuzlu molekulyar bioloq Maykl Denton bu mövzuda belə yazır: "Bir toz zərrəsindən də kiçik olmasına baxmayaraq, amöblər daha mürəkkəb orqanizmlərə bənzər həyat strategiyalarına əməl edirlər. Əgər bir amöb götürüb onu pişik ölçüsünə qədər böyüdə bilsək, onun bu məməli heyvanla təxminən eyni zəka səviyyəsinə malik olduğunu görərdik. Bəs bu mikroskopik canlılar necə belə düzgün hesablanmış qərarlar verirlər? Bu davranışları molekulyar səviyyədə izah etmək mümkün deyil". Michael Denton, The fate of nature (Təbiətin taley), səh. 228.

Bu canlılar şüurlu şəkildə və qərar qəbul edərək hərəkət edirlər. Amma maraqlısı odur ki, onların nə beyinləri, nə də sinir sistemi var. Onlar zülal, yağ və sudan ibarət hüceyrədir.

Son illərdə bakteriyalar üzərində aparılan müşahidələr göstərdi ki, bu təkhüceyrəli orqanizmlər yaşadıqları mühiti qiymətləndirir və qərar verirlər. Fransanın məşhur elmi jurnalı "Science et Vie"-nin 1999-cu ilin iyul nömrəsində dərc olunmuş məqalədə qeyd edildiyi kimi, bakteriyalar bir-biri ilə ünsiyyət qurur və aldıqları məlumatlar əsasında qərarlar qəbul edirlər.

Məqalədə qeyd olunur ki, bu rabitə son dərəcə mürəkkəb bir sistem vasitəsilə işləyir. Bakteriyaların səthində elektrik siqnallarını yayan və aşkar edən mexanizmlər var. Bu şəkildə bakteriyalar bir-birlərinə siqnal göndərir və olduqları mühitin xüsusiyyətləri və bu mühitdəki qidalanma vəziyyəti kimi məlumatları ötürürlər. Bu məlumatlara əsaslanaraq, nə qədər çoxalmalı olduqlarına və nə vaxt çoxalmağı dayandırmalı olduqlarına qərar verirlər.

Bir sözlə, adi gözlə görülməyəcək qədər kiçik canlılar ətrafları haqqında məlumat toplayır, sonra şərh edir, bir-birlərinə ötürür və sonra qərarlar qəbul edərək müəyyən istiqamətdə həyata keçirirlər. Həm də qruplar şəklində!

Yüksək ağıl və şüur tələb edən bu cür rasional, planlı və hesablanmış davranışların nə beyni, nə də sinir sistemi olmayan bir mikroorqanizm tərəfindən həyata keçirilməsi mümükn deyil. Bu vəziyyət açıq-aşkar bir möcüzəni ortaya qoyur: onu ağılla idarə edən başqa bir qüvvə var.

Son dövrlərədək biologiya elmində gedən mübahisələrdən biri də canlıların tədricən, yoxsa birdəfəyə yaranması ilə bağlı olub. Canlıların təsadüfən meydana gəlməsinin bioloji qeyri-mümkünlüyünü bir kənara qoysaq, yerin təbəqələrini və canlı qalıqlarını araşdırdıqda yer üzündə həyatın birdən-birə meydana gəldiyi aydın olur. Mürəkkəb canlıların qalıqlarının tapıldığı ən dərin təbəqə yaşı 520-530 milyon il olduğu təxmin edilən "Kembri" təbəqəsidir.

Kembri süxurlarında tapılan canlı qalıqları ilbizlər, trilobitlər, süngərlər, qurdlar, meduzalar, dəniz ulduzları, üzən xərçəngkimilər və dəniz zanbaqları kimi mürəkkəb onurğasız növlərinə aiddir. Maraqlısı odur ki, bu çox fərqli növlərin hamısı birdən və indiki quruluşlarında ortaya çıxıb, heç bir təkamül baş verməyib. Buna görə də bu möcüzəvi hadisə geoloji ədəbiyyatda "Kembri partlayışı" olaraq adlandırılır.

Bu təbəqədəki canlıların əksəriyyəti müasir analoqlarından heç bir fərqi olmayan mürəkkəb sistemlərə və gözlər, daxili orqanlar və qan dövranı kimi inkişaf etmiş fizioloji quruluşlara malikdir. Məsələn, trilobitlərin iki linzalı pətək göz quruluşu dizayn möcüzəsidir. Çikaqo və Harvard universitetlərinin geologiya professoru David Raup bunu belə müqayisə edib: "Trilobit gözünün dizaynı bu gün yalnız yaxşı təhsil almış və yüksək bacarıqlı optik mühəndis tərəfindən təkmilləşdirilə bilər". D. Raup, "Conflicts Between Darwin and Paleontology" (Darvin və paleontologiya arasında ziddiyyətlər), Bulletin, Field Museum of Natural History, Volume 50, January 1979, p. 24.

Təxminən 500 milyon il əvvəl yer üzündə birdən-birə peyda olan trilobitlərin gözü müasir arılarda və milçəklərdə olan eyni mürəkkəb göz quruluşudur. Bu faktlar onurğasızların özlərindən əvvəl yer üzündə yeganə canlı olan təkhüceyrəli orqanizmlərlə aralarında heç bir əlaqə və ya keçid forması olmadan birdən-birə və tam təkmil formada ortaya çıxdığını göstərir.

Təkamül ədəbiyyatının məşhur nəşrlərindən biri olan "Earth Sciences" jurnalının redaktoru Riçard Monestarski təkamülçüləri təəccübləndirən bu Kembri partlayışı haqqında aşağıdakı məlumatları verir:

"Bu gün gördüyümüz çox mürəkkəb heyvan formaları birdən ortaya çıxmışdır. Bu, Kembri dövrünün lap başlanğıcına, dənizlərin və yerin ilk kompleks canlılarla dolduğu vaxta təsadüf edir. Hazırda bütün dünyaya yayılmış onurğasız qrupları ilk Kembri dövründə artıq mövcud idi və indiki kimi bir-birlərindən çox fərqli idilər. Riçard Monestarski, "Secrets of the East" (Şərqin sirləri, Discover, aprel 1993, səh. 40.

Dünyanın birdən-birə bu qədər fərqli onurğasız növü ilə necə dolduğu və ortaq əcdadı olmayan fərqli canlı növlərinin necə ortaya çıxdığı təkamülçülərin heç vaxt cavab verə bilmədiyi sualdır. Təkamülçü düşüncənin dünyanın ən qabaqcıl müdafiəçilərindən biri olan İngilis bioloq Riçard Dovkins müdafiə etdiyi tezisləri kökündən etibarsız edən bu həqiqət haqqında belə deyir:

"...Kembri təbəqələri əsas onurğasız qruplarını tapdığımız ən qədim təbəqələrdir. Bunlar ilk ortaya çıxdıqları vaxtdan yüksək inkişaf etmiş formadadırlar. Sanki orada heç bir təkamül tarixi olmadan təsadüfən yaranıblar. Təbii ki, bu qəfil ortaya çıxma kreasionistləri çox sevindirir. Richard Dawkins, The Blind Watchmaker, London: W. W. Norton, 1986, səh. 229.

(ardı olacaq)

Elçin Bayramlı

SON SƏHİFƏ
SƏS
6 mart
2025-ci il

Adımıza saxta sosial şəbəkə hesabı açanlar qanunla necə cəzalandırılır?

AYDINLIQ GƏTİRİLDİ

”Son zaman insanlar sosial şəbəkələrdə saxta ad və soyadlardan istifadə edərək saxta profil hesabı yaradırlar. Saxta profil və səhifələr isə müxtəlif məqsədlər üçün yaradılır”. Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Fariz Əkbərov sözlərinə belə davam edib: ”Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin ”İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə” adlı 148-1-ci maddəsində qeyd edilir ki, ”İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən təhqir dedikdə kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma, böhtan dedikdə isə yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayma nəzərdə tutulur.

Şəxs saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə etmədən də kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında hər hansı şəxsi təhqir etməsi və ya böhtan atması Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 147 (böhtan) və ya 148-ci (təhqir) maddələri ilə cinayət məsuliyyətinə səbəb olunur.

Kibercinayətkarlığın araşdırılması ilə Dövlət Təhlükəsizliyi Xidməti, saxta profillərin açılması kimi işlərlə isə Daxili İşlər Nazirliyi məşğul olur”.

Ayşən Vəli

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

Çempionlar Liqası:

“Arsenal” hollandiyalılara futbol dərsi keçdi...

UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinə start verilib. İlk oyun günündə 4 qarşılaşma keçirilib. Günün ilk matçı Belçikada ”Brügge” ilə İngiltərənin ”Aston Villa” komandası arasında olub. Görüş qonaqların 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. Gecənin ən prinsipial matçı İspaniyada oynanılıb. Madrid ”Real”ı öz meydanında şəhərin digər təmsilçisi ”Atletiko”nu sınağa çəkib. Madrid derbisində sevinən tərəf ”kral klubu” olub - 2:1.

Bundan başqa, İngiltərə ”Arsenal”ı Niderlandda PSV-ni 7:1 hesabı ilə darmadağın edib, Fransanın ”Lill” komandası isə Almaniyada Dortmund ”Borussiya”sı ilə heç-heçə yə razılaşıb - 1:1.

DİQQƏT: Bu avtomobillərin idxalı gömrük rüsumundan azad edilib

Nazirlər Kabineti 17 noyabr 2017-ci il tarixli qərarı ilə təsdiq edilmiş ”Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edib. SİA xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, yalnız elektrik mühərriki ilə hərəkətə gətirilən, zavod buraxılış tarixindən 3 ilə qədər ötmüş yük avtomobillərinin idxalı 1 yanvar 2028-ci ilə qədər gömrük rüsumundan azad edilib (mövcud rüsum dərəcəsi 5 %-dir).

Bu qərar ekoloji cəhətdən təmiz və təhlükəsiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması və bu sahədə qanunvericiliyi təkmilləşdirilmək məqsədilə qəbul olunub.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700